

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## MSK İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsini təsdiqləyib



3

# Əsrə bərabər son 20 il - Prezidentin fəaliyyətinin uğur hesabatı...




8

İLHAM ƏLİYEV: "Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi"

SƏS
№ 233 (6916)
20 dekabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Ermənistanı çətin duruma sürükləyən BLEF




4

## Boykot siyasi acizliyin və məğlubiyyətin etirafıdır



14

## Uşaqları qorumayan dünya kimə lazımdır?



15

## "Növbədənkənar prezident seçkiləri yeni bir eranın başlanğıcı olacaq"



13

## Azərbaycana saxta dollar gətirən dəstə tutuldu



16

## Uşaqları mediada qorumalı, ya mediadan qorumalı?



10

# Əsas dövlət xərcləri: Qarabağa və Şərqi Zəngəzura

**Prezident İlham Əliyev: Keçmiş məcburi köçkünləri mümkün qədər tez yerləşdirməliyik. 2026-cı ilin sonunadək biz 140 min insanı yerləşdirməyi planlaşdırırıq. Qarabağda və Şərqi Zəngəzurda Böyük Zəfərimizə qədər çoxsaylı Azərbaycan vətəndaşının adının üzərində bir adı da var idi: məcburi köçkün. Minlərlə soydaşımız həyatın amansızlığı ilə üzləşmiş, öz doğma şəhər, rayon, qəsəbə və kəndlərindən uzaq düşmüş, illərlə ata-baba yurdundan ayrı yaşamalı olmuşdu. Yurdun itirilməsinin nə demək olduğunu isə yalnız bunu yaşayanlar bilər. İllərlə yurd-yuvasından, ev-eşiyindən, torpağından ayrı yaşayanlar bilər. Torpağının ətri burnunda qalanlar, qurban verdiklərinin hər birinin həsrətini çəkənlər bilər.**



### 30 il yurdsuz...

1990-cı ildən başlayaraq bir neçə il ərzində torpaqlarımızın bir qisminin Ermənistan tərəfindən işğal olunması nəticəsində minlərlə soydaşımız illərlə qurduqları evlərini, həyətlərini, bağ-bağçalarını qoyub silahın burnunda zorla yurdundan didərgin salınmışdı. Daha sonra isə onların evlərinin qapı-pəncərələri, dam örtüyü sökülüb satılmış, mal-mülkləri qarət olunmuş, həyət-bacaları, evləri yandırılmışdır.



Minlərlə azərbaycanlı bir qərinəyə yaxın məcburi köçkün həyatı yaşamağa məcbur edilmiş, ölkəmizin müxtəlif ərazilərində yerləşdirilmişdi. Bütün bunlar dəfələrlə dövlətimizin başçısı tərəfindən ən mötəbər beynəlxalq tribunalardan səsləndirilmişdi. Lakin dünya səssiz qalmışdı. Uzun illər ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinə, tarixi, mədəni və dini abidələrimizin, yüzlərlə sosial obyektlərin və yaşayış məskənlərinin dağıdılmasına, soydaşlarımızın məcburi köçkün kimi yaşamasına dünya susurdu.

Ermənilər işğal etdikləri torpaqlarımızda xalqımıza məxsus yeraltı və yerüstü sərvətləri talayıb dünya bazarına çıxarmış, torpaqlarımızı başdan-başa minalamışlar. Bir tərəfdən insanlar yurdunu itirmiş, bir tərəfdən isə onların həmin torpaqlara qayıdarkən olmazın çətinliyi ilə qarşılaşmaları üçün düşmən əlindən gələni etmişdi.

Qarabağda və Şərqi Zəngəzurda daş daş üstündə qalmamışdı. Ağdam Qafqazın Xirosimasına çevrilmiş, ağ saraylı evlər yandırılaraq qara rəngə boyanmışdı. Bəzi şəhər və qəsəbələrimiz o qədər dağıdılmışdı ki, Azərbaycan ordusu həmin yerləri işğaldan azad etdikdən sonra bayrağı sancmağa bir yer tapa bilmirdi.

Bütün şəhər, qəsəbə və kəndlər bir qəbiristanlıq görünüşündə idi. Bu yandırılmış, dağıdılmış, uçurulmuş, talanmış, qarət olunmuş məskənlərin əvvəlki halına gətirilməsi əlbəttə ki, zaman tələb edəcəkdi. Çünki ilk növbədə, bu məskənlər-torpaqlar minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirilməli idi.

### Yurdun sahibi gələcəkdi

Düşmən bilirdi ki, bu torpaqların sahibi bir gün onları geri alacaq. Ona görə də nə bacarmışsa, o qədər dağıtmış, talamışdı. Bütün bunlar isə 2020-ci il Zəfərindən sonra Qarabağda və Şərqi Zəngəzurda başlanan bərpa işlərinin sürətlə aparılmasına, soydaşlarımızın ata-baba yurdlarına qayıtmasına təbii ki, əngəl yaradır.

Ev tikmək, bağ-bağat salmaq bir insanın ömrünə sığmır. Bir həyətin həyət halına gəlməsi üçün bir ömür kifayət etmir. Biz qururuq, övladlarımız davam edir, nəvə-nəticələrimiz çalışır ki, yurd yurdluqdan çıxmasın, dağılmasın, viran olmasın. Beləliklə də yurd salmaq, yəni məskunlaşmaq elə də asan məsələ deyil.

Təəssüf olsun ki, bunu bir alın yazısı kimi yaşamalı olduq. Məskənimizdən zorla qovulduq. Məskənimiz göyə sovruldu. İllərlə əllərimizlə qurduqlarımız, min bir əziyyətlə yaratdıqlarımız düşmənin acı tamahının qurbanı oldu. Soydaşlarımız köçkünlük həyatına başlayandan bir neçə il sonra da əllərinin qabarı hələ getməmişdi. Hələ üstəlik bu qədər zəhmətin fonunda ürəyin qubar bağlaması isə daha dözülməz idi. O qubar ki, məcburi köçkünlərimizdən dünyasını dəyişən minlərlə insan yurdunu, torpağını bir daha görə bilməyərək həyatla vidalaşdı. O qubar ki, "torpaq, yurd" deyə-deyə minlərlə soydaşımız yurdundan kənarda illərlə yaşamalı oldu. O qubar ki, yüzlərlə vətəndaşımızın arzularını gözündə qoydu. Tikdiyi ev-eşiyində, həyətbacasında övladı üçün qurduğu arzuları yarımçıq qaldı.

Onlar düz 30 il köçkün kimi yaşadılar. Dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunsalar da, bu, yaralarına məlhəm ola bilmirdi. Çünki öz məskənləri, öz yurdları yox idi. Vətən bir olsa da, özgə yurdda idilər. İllərin zəhməti, arzusu, xəyalları əllərindən alınmışdı. Əzizlərinin qəbirləri o yurdlarda qalmışdı. Xatirələri o torpaqlara gömülmüşdü.

Bir qarış torpaq uğrunda müharibələr zamanla bizim soydaşlarımız kimi, bu acını milyonlarla insana yaşadıb. Lakin bu acılar tamahlara "dur" deyə bilməyib. Özününkü olanla qənaətlənməyi öyrədə bilməyib. Övlad itkisi yaşanıb, qan tökülüb, lakin qəddar ürəklərə bu, əsla təsir gücündə olmayıb. Bizim qonşuluqdan kənar qonşumuz kimi-ermənilərin tamahı, daş ürəkləri kimi...

### 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 min insan köçəcək

2020-ci ilin 44 günlük Vətən müharibəsində ədalət qalib gəldi. Azərbaycan xalqı Ermənistan üzərində Zəfər çaldı. Torpaqlarımız müzəffər sərkərdəmizin rəhbərliyi ilə milli ordumuz tərəfindən azad edildi. Biz bu Zəfərlə həm illərdən bəri çiyinlərimizdə ağır yük olan namus, şərəf məsələsini həll etdik, həm də minlərlə soydaşımızın yurduna qayıtmaq arzusunu reallaşdırdıq. Zəfər nə demək idi? Zəfər məcburi köçkünlərin yaxın gələcəkdə yenidən öz yurdlarında məskunlaşa bilməsi demək idi. Zəfər Qarabağın və Şərqi Zəngəzurun doğma anasına-Azərbaycana qovuşması və yenidən qurulacağı, yeni həyata qədəm qoyacağı demək idi.

Müharibə bitdi. Dünyanın əksər ölkələrindən azad torpaqlarımıza gələnlər, ermənilərin yurdlarımıza tutduğu sitəmi öz gözləri ilə görənlər oldu. Sonda haqqın kimin tərəfində olması da dünyaya məlum oldu.

Müharibə hələ bitməmişdi, artıq azad edilən torpaqlarda elektrik xətlərinin çəkilməsinə, yolların abadlaşdırılmasına başlanmışdı. Çox çəkmədi ki, bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydanına çevrildi. Gündən- günə yurdlarımıza yeni həyat verildi.

Bu gün də azad edilmiş torpaqlarımızda bərpa işləri sürətlə həyata keçirilir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"na əsasən mərhələli şəkildə görülən işlər azad edilmiş torpaqlarımıza yeni nəfəs verir.



Məcburi köçkünlərin artıq yurdlarına qayıdışı başlayıb. Ötən ilin iyul ayından Laçın və Füzuli şəhərləri, Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri artıq qoynunu sakinlərinə açıb, onları qarşılayıb. Qayıdış mərhələli şəkildə həyata keçirilir. Şəhər, qəsəbə, kəndlərimiz müasir şəkildə qurulur, insanların əvvəlkindən də gözəl şəraitdə yaşaması üçün işlər görülür, daha sonra onlar köçürülür.




Ərazilərimizin böyük qisminin minalanması və minalanmış ərazilərin xəritələrinin düşmən tərəfindən gizlədilib verilməməsi qayıdışı bir qədər ləngidir. Lakin bəlli ərazilərin minadan təmizlənməsi sürətlə həyata keçirilir. Təmizlənən ərazilər isə bərpa olunur, yenidən qurulur, sakinlərinə verilir. Beləliklə, biz öz torpaqlarımıza qayıdırıq. Bu qayıdışı isə bütün dünya izləyir.

Biz yeni, müasir şəhərlər, qəsəbələr, kəndlər salırıq. Bütün bunlar isə xalqa müzəffər sərkərdə, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bəxş olunur. Necə ki, düzgün siyasəti, milli ordumuza böyük sərkərdəliyi ilə torpaqlarımızı geri alıb soydaşlarımıza qaytardı, indi isə məhz Onun rəhbərliyi ilə azad edilmiş torpaqlarımız əvvəlkindən də gözəl görkəmə salınır, müasir dövrün tələblərinə uyğun şəkildə öz sakinlərinə qaytarılır. Qayıdış Proqramı sürətlə, keyfiyyətlə və qarşıdakı illər üçün də planlaşdırılmış şəkildə həyata keçirilir. Prezident İlham Əliyevin ötən ay "Euronews" televiziyasına verdiyi müsahibədə bunu bir daha aydın şəkildə gördük: Bizim əsas dövlət xərclərimiz azad edilmiş Qarabağa və Şərqi Zəngəzura yönləndiriləcək. Birincisi, ona görə ki, biz keçmiş məcburi köçkünləri mümkün qədər tez yerləşdirməliyik. 2026-cı ilin sonunadək biz 140 min insanı yerləşdirməyi planlaşdırırıq. Bunun üçün isə biz infrastruktura, yaşayış yerlərinin inşasına və sosial infrastruktura böyük vəsait yatırmalıyıq. Bununla yanaşı, 30 il işğal altında olmuş bu ərazilərin kənd təsərrüfatı, hidroelektrik enerjisi, günəş və külək enerjisi, turizm kimi sahələrdə böyük potensialı var. Bu, dövlət investisiya proqramının əsas sahəsi olacaq.

***Mətanət Məmmədova***

# “Bu layihə ”köhnə qitə”nin enerji xəritəsini dəyişdirir”

## Serbiya və Bolqarıstan mediası Prezident İlham Əliyevin Qaz İnterkonnektorunun açılış mərasimində söylədiyi fikirlərə geniş yer ayırır
















**Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya işgüzar səfəri, iştirak etdiyi tədbirlər və keçirdiyi görüşlər yerli mətbuatın diqqət mərkəzindədir. Serbiya mediası Prezident İlham Əliyevin Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində söylədiyi fikirlərə geniş yer verib.**

”Novosti”, ”Index”, ”NSPM”, ”Informer”, ”Opstina Sokolac” kimi saytların yaydığı materiallarda Prezident İlham Əliyevin mərasimi dostluq və strateji tərəfdaşlığın sübutu adlandırdığı, qaz interkonnektorunun Serbiya və Bolqarıstanın, eləcə də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcəyini vurğuladığı qeyd olunur. Layihənin ”köhnə qitə”nin enerji xəritəsini dəyişdiyi bildirilir.

Yazılarda istifadəyə verilən interkonnektor sayəsində Serbiyanın Azərbaycandan təbii qaz tədarükünə başlayacağı qeyd olunur. Boru kəmərinin istifadəyə verilməsinin Serbiya sənayesinin inkişafına töhfə verəcəyi vurğulanır.

Serbiyanın Azərbaycanın qaz ixrac etdiyi 9-cu ölkə olduğu, ölkəmizin 2027-ci ilədək Avropaya qaz ixracının həcmini iki dəfə artıracağı bildirilir. Diqqətə çatdırılır ki, Serbiya bununla da enerji mənbələrini şaxələndirir və daha da möhkəmləndirir. Boru kəməri Serbiyanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Şərqi və Mərkəzi Avropa ölkələrinə əlavə təchizat imkanı verəcək. Bu interkonnektorun istifadəyə verilməsi həm Serbiya, həm də Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb edir.

”Beta”, ”Politika”, ”SRNA”, ”Alo” və ”Gradske info” xəbər portalları isə Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Aleksandar Vuçiçin təkbətək görüşdə ölkələr arasında ikitərəfli və iqtisadi əlaqələrin qarşılıqlı maraq doğuran bütün vacib mövzular ətrafında müzakirələr apardığını yazıb. İki ölkə lideri, həmçinin regional və geosiyasi məsələləri də müzakirə edib. Serbiya Prezidenti ölkəsinin Azərbaycanla strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əla münasibətlər qurmağı bacarmasından qürur duyduğunu deyib.

İki ölkə əlaqələrinin sürətlə və dinamik şəkildə inkişaf etdiyi, Azərbaycan və Serbiyanın strateji tərəfdaş olduğu bildirilir. Qeyd olunur ki, iki ölkə strateji tərəfdaşlıq çərçivəsində enerji sektoru ilə yanaşı, hərbi sənaye, yüksək texnologiyalar və üçüncü bazarlar üçün birgə istehsal kimi əməkdaşlığın təkmilləşdirildiyi çoxsaylı digər sahələrdə birgə işlər görür.

”Srbija Danas”, ”RTV BN”, ”Tanjug” Azərbaycan və Serbiya prezidentlərinin səfər çərçivəsində hərbi texnika və avadanlıqlara baxdığını yazıb.

Bildirilir ki, hərbi aerodromda Serbiya Silahlı Qüvvələrinin xüsusi təyinatlı bölmələrinin silah və imkanlarının təqdimatı olub. Həmçinin pilotsuz uçuş aparatlarının, hava hücumundan müdafiə sistemlərinin, hava və quru döyüş platformalarının təqdimatı keçirilib, Paraşüt briqadası və digər xüsusi təyinatlı birləşmələr öz imkanlarını təqdim edib.

Rumıniyanın AGERPRES milli xəbər agentliyi, Adevarul, Digi 24 nəşri, Bolqarıstanın BTA milli xəbər agentliyi, Cross.bg, Şum.bg, 24 chasa, news.bg, plovdiv24.bg, pronews.bg xəbər portallarının, Vesti.bg televiziya kanalının yaydığı materiallarda Prezident İlham Əliyevin mərasimi dostluq və strateji tərəfdaşlığın sübutu adlandırdığı, qaz interkonnektorunun Serbiya və Bolqarıstanın, eləcə də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcəyini vurğuladığı qeyd olunub. Bildirilir ki, boru kəməri Azərbaycandan və Xəzər regionundan təbii qazın Mərkəzi Avropa ölkələrinə tranzitinə imkan yaradır. İnterkonnektor sayəsində Serbiyanın Azərbaycandan təbii qaz tədarükünə başlayacağı qeyd olunub. Yazılarda bildirilir ki, boru kəmərinin istifadəsi Serbiyanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Şərqi və Mərkəzi Avropa ölkələrinə əlavə təchizat imkanı verəcək. İnterkonnektorun istifadəyə verilməsi həm Serbiya, həm də Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb edir. Bildirilir ki, Serbiya tərəfinin ”Bulgartransgaz” şirkəti ilə imzaladığı saziş çərçivəsində gələn ildən 2026-cı ilədək Azərbaycandan illik 400 milyon kubmetrədək qazın bu ölkəyə tədarükü nəzərdə tutulur. 2027-ci ildən sonra isə bu həcm üç dəfəyə qədər arta bilər.

Bolqarıstanın BTA milli xəbər agentliyi, pronews.bg, Vestnikstroitel.bg, 24 chasa.bg xəbər portalları, BNT televiziya kanalı və digər KİV-lər Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Rumen Radevlə təkbətək görüşün keçirilməsi barədə məlumat verib. Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında dostluq və strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilməsi nəzərə çatdırılıb, Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılışının əhəmiyyəti vurğulanıb. Ölkələr arasında ikitərəfli və iqtisadi əlaqələrin qarşılıqlı maraq doğuran bütün vacib mövzulər ətrafında müzakirələr aparılıb. İki ölkə liderinin Solidarity Ring təşəbbüsünün əhəmiyyətinə toxunaraq, bu layihənin Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişlənməsi və ölkəmizin Avropanın qaz təchizatının təmin olunması işinə verdiyi töhfə baxımından önəmini bir daha qeyd etdikləri barədə məlumat verilib.

Qeyd edək ki, Serbiyanın Niş və Dimitrovqrad şəhərləri arasında 109 kilometr uzunluğunda yeni qaz kəmərinin tikintisi bir il çəkib. Serbiya-Bolqarıstan interkonnektorunun ümumi uzunluğu isə 170 kilometrdir və Sofiya yaxınlığındakı Novi İskar şəhərinədək davam edir.



## MSK İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsini təsdiqləyib

Dekabrın 19-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. İclasda hakim Yeni Azərbaycan Partiyası tərəfindən İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi məsələsi müzakirə olunub.Müzakirələrdən sonra İlham Əliyevin növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkilərində namizədliyinin irəli sürülməsi təsdiqlənib.

# Ermənistanı çətin duruma sürükləyən BLEF




**Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan, bir neçə ay əvvəl Ermənistanda avtomobil istehsalına başlanıldığını söyləyəndə, bununla bağlı statistik göstəricilər barədə informasiyalar yayılanda, elə erməni cəmiyyəti özü buna şübhə ilə yanaşırdı, çünki belə "istehsal nağılları" barədə ermənilər özləri hamıdan çox eşitdikləri halda, bunların reallıqla üst-üstə düşdüyünün şahidi olmayıblar. Doğrudur, Ermənistanın iqtisadiyyat naziri avtomobil istehsalının təşkili barədə ilk dəfə danışırdı, amma son illərdə nəticəsi ortada olmayan istehsal barədə bu cür bəyanatları ermənilər ölkə hakimiyyətinin dilindən dəfələrlə eşidiblər, hətta Nikol Paşinyanın özünün belə onlardan birinin "şousunda" iştirak etdiyi qətiyyən yaddan çıxan deyil.**

Hazırda elə bir fikir formalaşdırmaq istəyirlər ki, guya Ermənistanda avtomobillərin istehsalı sadəcə olaraq, sonda baş tutmayıbmış. Amma statiksik məlumatlar və ortada olan nəticələr sual yaradır ki, görəsən həqiqətən də belə bir istehsala başlanılıb, yoxsa yox? Sonuncu dəfə iqtisdiyyat naziri Kerobyan, Ermənistanda istehsal olunan "Sefu 1" avtomobilinin artıq dövlət qeydiyyatının olduğunu da söyləmişdi. Bu dəfə nazir öz fikirlərini daha əminliklə söyləyirdi və daha ciddi görünürdü. Rəsmi statistikada belə, avtomobil istehsalı haqqında məlumatlar sürətlə yayılırdı və bu da elə təsəvvür yaradırdı ki, guya istehsal artmaqdadır. Qeyd olunurdu ki, guya rəsmi statistikaya görə, bu ilin doqquz ayında Ermənistanda 114,9 milyon dram dəyərində avtomobil istehsal edilib. Amma indi ilin sonunda, bu yaxınlarda yayımlanan məlumatlara görə, on ay ərzində avtomobillərin istehsalı təxminən sıfır həddində imiş. Maraqlıdır, əvvəllər istehsal olunan da yox oldumu? Əgər doqquz ayda 114,9 milyon dram dəyərində avtomobil istehsal olunsaydı, o zaman indi sonda cəmi 29,5 milyon dramlıq istehsal edildiyini necə başa düşmək olar? Yəni, arada olan 85,4 milyon dram dəyərində istehsalın hara getdiyi sual doğurur. Qeyd olunan avtomobillər yox oldumu, yoxa çıxdımı? Hər halda çox müəmmalı bir durum barədə düşünməyə əsas yaranır və bu durum hər kəsdə ciddi şübhələr doğurur.

Hazırda ermənilər özləri belə qənaətdədirlər ki, bu avtomobillər ya istehsal olunmayıb və deyilənlər də yalan olub, ya da istehsal edildikdən sonra onlar necə isə, hansı yollasa "yox olub". Həm də axı hər bir erməni belə görür ki, ölkələrində heç bir istehsal yoxdur. Haylar özləri də görürlər ki, real vəziyyət istehsalın olması anlamına gəlmir. Onu da bilirlər ki, istehsaldan söhbət belə gedə bilməz, çünki xaricdən detalları gətirib, haradasa bir-birinə yapışdırmaq, calamaq avtomobil istehsal etmək demək deyil. Amma Kerobyan kimi bir nazir iddia edirdi ki, Ermənistanda avtomobil istehsal edilir. Belə yalan informasiyalar, ictimaiyyəti aldatmaq üçün həqiqətə uyğun olmayan məlumatların yayılması Ermənistan üçün elə bir adi hal hesab olunur və istənilən sahədə belə yalanlara asanlıqla əl atılır. İndi də iqtisadi sahədə yalan-palan danışıldığı ortaya çıxır. Sual olunur ki, axı nəyə görə belə yalana əl atılır və məhz iqtisadi sahədə bu yalan kimin nəyinə lazım idi?

Bu vaxta qədər istehsalla bağlı erməni cəmiyyətinə çoxlu "nağıllar" danışılıb. Dəfələrlə erməniləri müxtəlif məhsulların istehsalına başlanıldığı barədə aldadıblar və bir növ belə aldadılmalara haylar öyrəncəli olublar. Görünür elə buna görə də rahatlıqla, hansısa məhsulun istehsalı barədə "nağılları" hakimiyyət nemayəndələri çox rahatlıqla danışa bilirlər. Eynən avtomobil istehsalı barədə danışılanlar, verilən bəyanatlar da belə yalanlardan biri imiş. Bu barədə nümunələr hələ çoxdur və görünür, erməniləri televizor istehsal edəcəkləri ilə bir vaxtlar aldadanlar indi də rahatlıqla avtomobil istehsal edildiyi barədə aldadacaqlarına əmin imişlər. Amma maraqlıdır ki, televizor istehsalının yalan oduğu ortaya çıxandan sonra Ermənistanda avtomobil istehsal edilməyə başlanıldığına, erməni avtomobillərinin istehsalına başlanıldığına erməni cəmiyyətini inandıracaqlarını necə ağıllarına sığışdırıblar? Özü də axı qısa bir zamandan sonra avtomobil istehsalının da taleyi elə erməni televizorlarının taleyi kimi olacağını bilə-bilə bunu necə edirlər və necə belə yalana əl atırlar? Belə yalanlara əl atmaqda məqsəd nə ola bilər axı? Həqiqətən də suallar çox maraqlı və düşündürücüdür.

Televizorların istehsalı ilə bağlı ermənilərin necə ümidləndirildiyini yaxşı xatırlayırıq. Böyük investisiyaların məhz Ermənistana gətirildiyi deyilirdi və elə bir səs-küy qoparılmışdı ki, elə bil bundan sonra bütün dünyanı televizorlarla yalnız Ermənistan təmin edəcəkmiş. Yəni investisiya bumu kimi təqdim etdikləri həmin o televizor istehsalı, elə bil ki, elə başladığı zaman da dayandırıldı. Ən azından belə göründü. Belə göründü ki, 2018-ci il Parlament seçkiləri ilə "erməni televizorlarının" istehsalına son qoyuldu. Maraqlıdır, bəs o investisiyalar necə oldu və hara yönəldildi? Başlanılan istehsalın taleyi necə oldu? Bu barədə ümumiyyətlə, niyə danışılmadı da? İstehsalı dayandırmaq bir tərəfə, bunun barəsində düşünməyi, danışmağı, xatırlamağı da ermənilər dayandırdılarmı?

Xatırladığımız kimi, bu sadalananların ardınca da Ermənistanda guya fars avtomobillərinin istehsalına başlanıldığı deyilirdi. Yəni, bu dəfə növbədə fars avtomobillərinin istehsalı ilə bağlı bəyan edilməsilə əlaqədər məlumatların dövriyyəyə buraxılması imiş. Bununla da, bu yalanlarla da kifayətlənmədən, guya Koreya avtobuslarının istehsalı barədə Ermənistan ictimaiyyətində xəbərlər yaymağa başladılar. Məsələ burasındadır ki, erməni cəmiyyəti nə Fars avtomobillərinin, nə də Koreya avtobuslarının istehsalını görə bilmədi. Heç birinin istehsalının şahidi olan olmadı. Baxmayaraq ki, Ermənistan hökuməti tərəfindən Koreya avtobuslarının istehsalı üçün pul, vəsait ayrıldığı barədə də məlumatlar yayılmışdı və heç bir istehsalın olmadığı da sonradan ortaya çıxdı. Maraqlıdır, tutaq ki, plan beləcə hansısa səbəbdən uğursuz oldu. Bəs onda Ermənistan hökumətinin ayırdığı puların, vəsaitlərin taleyi necə oldu? Hara getdi o vəsaitlər? Bunlara bir cavab vermək fikrində olan da yoxdurmu? Ümumiyyətlə, bütün bunlar nədən ötrü idi və uydurmalar, yalanlar nəyə hesablanmışdı axı?

Bu vaxta qədər istehsalla bağlı deyilənlərin mənasız, yaxud da yalan olmasının fonunda bu il guya avtomobil istehsal edildiyi ilə bağlı yenə də Ermənistan ictimaiyyətinə informasiya verildi və hətta doqquz ayın yekununda istehsal olunan avtomobillər barədə statistik göstəricilər də təqdim olundu. Sonra da bu statistik göstəricilərin reallıqla üst-üstə düşmədiyi ortaya çıxdı və hər ay bu göstəricilərin artmasının əksi müşahidə olunmalı oldu. Daha bir sual diqqəti cəlb edir ki, görəsən, bundan əvvəlki istehsalla bağlı hansı göstəricilər, hansı dırnaqarası "nailiyyətlər" var idi ki, bu dəfə Ermənistanda avtomobillərin istehsal edilməsi, yaxud da yığılması üçün növbəti təşəbbüslə çıxış etmək üçün iqtisadiyyat naziri Vaan Kerobyan ruhlanaraq belə pafosla danışmalı olmuşdu? Niyə belə yalanlara əl atılır, ümumiyyətlə, iqtisadi sahədə hansısa işlərin görüldüyü görüntüsü yaratmaq niyyəti nədəndir? Axı bu görüntünü yaratmaqla heç bir nəticə hasil etmək, nəyə isə də ümid etmək olmaz. Bununla yalnız qısa bir zaman kəsiyində ictimaiyyəti, bir də özlərini aldada bilərlər.

Hər dəfə istehsal olunmayan, istifadəyə verilməyən məhsulların istehsalı, hətta istehsal həcmi barədə statistik məlumatları yayanlar ilk növbədə əlbəttə ki, özlərini aldadırlar. Ola bilsin ki, "misli görünməmiş" nailiyyətlər barədə danışmağı təbliğat, PR kimi başa düşən Ermənistan hakimiyyəti bununla doğru addım atdığı qənaətində ola bilər. Amma sual oluna bilər ki, hara qədər bunu edəcəklərini düşünürlər? Belə yalanlarla iqtisadi göstəricilərə ümid etmək olmaz axı. İstehsal barədə yalanlarla sadəcə olaraq, blef edildiyi bəlli olur. Bəlli olur ki, Ermənistan hakimiyyəti daxili auditoriyaya hesablanan oyunlarını davam etdirir. Bəlkə də vaxt qazanıldığı düşünülür. Bəlkə də Ermənistanın hazırki hakimiyyəti elə zənn edir ki, belə "nağıllarla" kütləni çaşdıra və yalanların hesabına hardasa onları sakitləşdirə bilər. Amma qazanılan bu vaxt, zaman onların öz əleyhinə işləyir. Blef etməklə, ölkənin iqtisadi vəziyyətini də çətin duruma sürükləmiş olurlar. Hər bir halda, çətin duruma Ermənistan hakimiyyəti özü də düşmüş olur, çünki heç bir istehsal olmadan, iqtisadiyyatdan danışmaq mümkün deyil və bunun da sonu daha böyük səfalət, daha acınacaqlı vəziyyət vəd edir.

Ermənistanda istehsal haqqında söhbət düşəndə hazırda ancaq danışılan yalanlar və vədlər göz önündə canlanır. İstehsal sahələri yaradılması görüntüsü ilə iqtisadiyyatının inkişaf etdiyini göstərmək istəyənlər, sonda heç bir haqla bunu əsaslandıra bilmirlər. Əvvəla ona görə ki, göz önündə konkret faktlar, eləcə də nəticələr yoxdur. İstehsal həcmi barədə yayılan statistik məlumatlar belə sonda yalan olaraq ortaya çıxır. Digər tərəfdən də axı hər kəsə bəllidir ki, Ermənistanda ərzaq istehsalı da, içkilərin istehsalı da, geyim istehsalı da, elektrik avadanlıqlarının istehsalı da, kompüter, elektron, optik avadanlıqlar istehsalı da nəinki azalıb, ümumiyyətlə, yox dərəcəsindədir. Həmin ölkədə istehsalı azalmayan məhsul yoxdur və ümumilikdə sənayenin istehsal həcminin tamamilə yox dərəcəsində olduğu sirr deyil. O zaman istehsal barədə nəyə görə yalandan informasiya yayırlar? Görüntü yaratmaqla, blef etməklə işlərini bitmişmi zənn edirlər?

Marginallaşmış vəziyyətdə olan, dalana dirənən bir ölkəni blef yox, real iqtisadi layihələr çətin vəziyyətdən çıxara bilər. Real layihələr işlənib hazırlanaraq istehsalı artırmaq olar, yalanla yox. İstehsal da öz növbəsində iqtisadiyyata öz töhfəsini vermiş olar. Qonşu ölkələrlə normal münasibətlər, iqtisadi əlaqələr yaratmaq lazım olduğu bir məqamda hiyləgərlik etməyə çalışmaq, yalana əl ataraq cəmiyyəti aldatmaq ən azından, şansın əldən verilməsi deməkdir. İndi blef etdiklərini və bununla da cəmiyyəti aldatdıqlarını düşünənlər çox dəyərli bir zaman itgisinə, nəticədə də çox böyük geriləməyə rəvac verdiklərini dərk etmiş olsalar, buna qətiyyən yol verməzlər. Görünür hələ də dərk etmirlər, yaxud da dərk etmək istəmirlər və blef etməyi doğru yol bilirlər ki, bu da nəticədə bütövlükdə Ermənistanı çətin duruma sürükləməkdə davam edir...

***İnam Hacıyev***

# Sülh sorğusu və “Qarabağ klanı”

***Ermənilərin ”Böyük Ermənistan” arzularının dəfn edildiyi və bu işdə onlara Azərbaycanın yardımçı olduğuna kimsənin şübhəsi yoxdur. ”Hay”lar öz hesablarını aldılar, iştahaları dillərinin altında qaldı, ibtidai düşüncələri ilə güman edirdilər ki, Azərbaycandan zaman-zaman torpaqqoparma seriallarını davam etdirəcəklər. Çox təəssüf ki, 30 illik işğalı kimlərində günahı və kimlərinsə xəyanəti ucbatından sürdürə bildilər. Amma əllərindəkiləri legitimləşdirə, dünyanın növbəti erməni dövlətinə çevirə bilmədilər. Daha doğrusu, dünyada elə bir dövlət tapılmadı ki, beynəlxalq səviyyəli qanunsuzluğa, bəşəri cinayətə haqq qazandırsın, Qarabağdakı qanunsuz dövləti tanısın. Bəs bu gün Ermənistanda nə düşünürlər?***



Ermənistan mətbuatını bir az vərəqləmək yetər ki, rəsmi və qeyri-rəsmi dairələrdə danışılanlardan xəbər tutasan. Demək olar ki, burunları ovulan bütün ermənilər sülh və əmin-amanlıq istəyir. Düzdür ara-sıra Qarabağı unutmadıqlarını dilə gətirirlər, amma daha döyüşmək istəmirlər. Dünyada insanların müəyyən bir məsələ ilə bağlı fikirlərini öyrənməyin ən asan yolu hesab edilən sosioloji sorğularda da ermənilər skeptik fikir səsləndirirlər. Əslində, xüsusən də Ermənistanda sorğuların nəticələri şübhəli görünür. Və burada söhbət təkcə respondentlərin qeyri-səmimi cavablar verə bilməsində deyil, həm də sorğunun kimin sifarişi ilə keçirildiyi, səsləri kimin və necə sayacağı ilə bağlıdır. Və burada bizi maraqlı kəşflər gözləyə bilər.



Bu, ”FactInfo”-nun Youtube kanalında keçirdiyi sorğunun məqsədi Azərbaycanla imzalanmış sülh müqaviləsinin Ermənistan üçün sülhə zəmanət verib-verməyəcəyi ilə bağlı əhalinin fikrini öyrənmək olub. Belə ki, sorğunun nəticələrinə əsasən məlum olub ki, əksəriyyət sülh gündəminə inanmır. Sorğuda 8100 nəfər iştirak edib. Respondentlərin 66%-nin fikrincə, Azərbaycan qoşunları ”Ermənistan ərazisində olduğu müddətdə” sazişin bağlanması sülhə zəmanət verməyəcək. Respondentlərin yalnız 4%-i buna baxmayaraq sülhün mümkün olduğuna inanır.

Respondentlərin 19%-i hesab edir ki, Ermənistan ilkin şərt irəli sürməli və qoşunların çıxarılmasını tələb etməlidir. Respondentlərin 9%-i Azərbaycanın qoşunlarını çıxarmayacağına əmindir. ”Beləliklə, qeyd etmək olar ki, Nikol Paşinyana cəmi 4% dəstək var və onun qərarları legitim sayıla bilməz”, - deyə müxalifət mediası qeyd edir və belə qənaətə gəlir ki, etimad və dəstəyi olmayan indiki hakimiyyət insanların səsvermə hüququ üzərindən siyasət yürüdür. Maraqlıdır, belə çıxır ki, kiçik bir qrup insan (etiraf etməlisiniz ki, 8000 sorğu iştirakçısı bütün ölkə deyil) və hətta hakimiyyətə tam sadiq olmayan bir kanalda belə, hökumətin sülh müqaviləsindən nəticə çıxarmaq siyasətini dəstəkləmədiklərini iddia edirlər. Yeni burada manipulyasiya aləti var. Eyni sorğu Ermənistan hakimiyyətinə sadiq bir saytda aparılsa, təbii ki, tamam fərqli nəticələr əldə etmək olar. Tamamilə aydındır ki, ”FaktInfo” sorğusu internetdə aparılıbsa, onda əsasən radikal gənclər iştirak edib, onlar müharibənin nə olduğunu, hansı bəlalar və bədbəxtliklər gətirdiyini anlamırlar. Amma hərbi yaşda övladı olan orta və yaşlı insanlar, yaxud oğullarından biri Qarabağda birinci və ya ikinci müharibədə həlak olan valideynlər arasında sorğu keçirsəniz, sülh tərəfdarları böyük əksəriyyət təşkil edəcək.

Ermənilər qorxur, artıq sevdiklərini müharibədə itirmək istəmirlər, ona görə də sülh tərəfdarıdırlar. Bunu erməni mətbuatı da yazır: ”Bilirsinizmi, hər gün soydaşlarımızla internetdə yox, real həyatda ünsiyyətdə olanda eyni mikroavtobuslarda, müxtəlif bölgələrdə görürəm ki, onların demək olar ki, hamısı sülh və əmin-amanlıq istəyir. Bəli, onlar Qarabağı unutmurlar, amma daha döyüşmək istəmirlər. Onların arasında həm hazırkı hakimiyyətin tərəfdarları, həm də əleyhdarları var. Bəli, düzünü desək, yuxarıdakı sorğunun nəticələrinə inanmaq olmur. Müştərilərinin tələblərinə cavab vermək üçün asanlıqla tənzimlənə bilər. Və burada, tamamilə aydındır ki, Paşinyanın sülh təşəbbüslərinə zərbə vurmaq üçün aydın məqsəd qoyulub. Onun sülh gündəminin azlıq tərəfindən dəstəkləndiyini deyirlər. Amma bu, sırf manipulyasiyadır, Ermənistanın özündə yaşamaqla bunu asanlıqla təkzib etmək olar”.

Maraqlıdır ki, sülhün əleyhinə səs verənlər arasında diaspor nümayəndələri də var. Məlumdur ki, erməni diasporu arasında əhval-ruhiyyə həmişə müharibəyə köklənib. Bəs 44 günlük müharibə zamanı bu ermənilərə kömək etdimi? Nə qədər diaspor nümayəndəsi Ermənistana, Qarabağa döyüşmək üçün gəldi? İndi Ermənistandan minlərlə kilometr aralıda təhlükəsiz olduqları üçün hökumətin sülh proqramına qarşı çıxırlar. Elə isə gəl, özün döyüş, niyə Ermənistandakıları yeni müharibənin ağuşuna itələyirlər? Deməli, sorğu zamanı əldə edilən rəqəmlər özlüyündə heç nə ifadə etmir. Bu rəqəmlər - daha doğrusu, onlara sponsorluq edənlər, onların arxasında duranlar sadəcə olaraq yeni mitinqlər, etirazlar yaratmaq üçün ermənilər çaşdırmağa çalışırlar.

Sponsorlar dedikdə, təbii ki, illərdir ermənilərin də qanını içən keçmiş ”Qarabağ klanı” nəzərdə tutulur. Ermənilər onların manipulyasiyasına və təbliğatına uysalar, qan içməyə davam edəcəklər. Axı, ən əsası odur ki, yeni müharibə olsa belə, ölkədən qaçan Moskvada, Krasnodarda, Parisdə və Londonda məskunlaşan yetkin şəxslər deyil, yerli gənclər olacaq, əlbəttə, Levon Köçəryan və ya Mikael Minasyan deyil. Ermənilər bəzi suallara elə özləri cavab verərək: ”Sülh istəmirsənsə, silaha sarıl və sərhədə doğru yürüş et. Bəlkə bundan sonra ölkədə kimsə sizə inana”.

## Ermənistan gündəmində daha nələr var?

Ermənistan müdafiə nazirliyində Yunanıstan və Kipr nümayəndələri arasında hərbi əməkdaşlıq haqqında sazişlər imzalanıb. İkitərəfli yunan-erməni və üçtərəfli müdafiə sahəsində məsləhətləşmələr keçirilib. Müdafiə Nazirliyinin nümayəndələri birgə əməkdaşlıq sahəsində proqramlara imza atıblar. Proqrama müvafiq olaraq tərəflər müdafiə sahəsində onlarla tədbir keçirəcək.

Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla sülh prosesinin qəsdən ləngidiyini istisna etməyib. Baş nazirin sözlərinə görə, Ermənistan hakimiyyəti artıq razılaşdırılmış üç prinsip əsasında sülh gündəliyinə sadiq qalır. O, bu barədə Ermənistan Xarici İşlər Nazirliyində qarşıdan gələn bayramlar - Yeni il və Milad bayramları münasibətilə keçirilən qəbulda çıxışı zamanı bildirib. Tədbirdə Ermənistanın digər



ölkələrdəki diplomatik nümayəndələri, Ermənistan XİN-in mərkəzi aparatının əməkdaşları, eləcə də xarici ölkələrin səfirləri və diplomatları iştirak ediblər. Paşinyan çıxışı zamanı vurğulayıb ki, sülh gündəmi hökumət üçün prioritet olmaqda davam edir: ”Biz, əvvəllər dəfələrlə qeyd etdiyimiz kimi, artıq razılaşdırılmış üç prinsipə əsaslanan sülh gündəliyinə sadiq qalırıq. Ümid edirik ki, son vaxtlar regionda və region ölkələrində baş verən hadisələr sülh prosesinin qəsdən ləngidiyini göstərməyəcək. Təbii ki, bu cür fikirlər daha çox əsaslandırılarsa, o zaman çox dərin narahatlıq doğurmalıdır”.

Mənbə əmin edir ki, baş nazir Nikol Paşinyan dekabrın 25 və 26-da Sankt-Peterburqda keçiriləcək Avrasiya İqtisadi İttifaqının və MDB Rəhbərləri Şurasının iclasında iştirak edəcək. Bu iddia ilə ”Hraparak” qəzeti də çıxış edib. Nəşr yazır ki, Ermənistan hakimiyyəti Qərbdən istədiyi dəstəyi ala bilmədiyi üçün ”U dönüşü” etməyə hazırlaşır: ”Hakim partiyanın şənbə günü Gümrüdə keçirilən siyasi toplantısında Paşinyan və XİN rəhbəri Ararat Mirzoyan gileyləniblər ki, ”Qərb onların addımlarını düzgün dəyərləndirmir, buna görə də Rusiya ilə yumşaq siyasətə keçməyin vaxtı çatıb”. Bununla onlar qarşıdakı tədbirlərdə iştiraka dair mesaj veriblər. Bundan əvvəl Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirmişdi ki, Kreml Nikol Paşinyanın MDB liderlərinin qeyri-rəsmi görüşündə, eləcə də Avrasiya İqtisadi İttifaqının sammitində iştirak edəcəyi barədə siqnal alıb.

”Zəngəzur dəhlizi ideyası Ermənistanın iradəsindən asılı olmayaraq həyata keçiriləcək”. Bunu Ermənistan parlamentinin ”Şərəfim var” fraksiyasının deputatı Tiqran Abramyan deyib. ”Zəngəzur dəhlizi” ifadəsi türkdilli siyasi lüğətdə regional layihələr kontekstində yenidən aktivləşdirilib. Ermənistan rəhbərliyi ölkə daxilində insanları əzir, həbs edir, lakin Azərbaycan və Türkiyəyə baş əyir, dedikləri ilə razılaşır, güzəştə gedir. Hələ də aydın deyil ki, dəhliz məsələsinin necə həyata keçirilməsi nəzərdə tutulur? Fikrimcə, İrəvanın nəyəsə müqavimət göstərməsi qeyri-realdır”, - T.Abramyan bildirib.

Beləliklə, Bakı və İrəvan arasında sülh sazişinin imzalanması barədə britaniyalı jurnalist Tomas de Vall da fikirlərini bölüşüb və əsasən pessimist olduğunu deyib: ”İki ölkə arasında müharibə təhlükəsi həmişə mövcuddur”. Son vaxtlar erməniprəst mövqeyi ilə seçilən Tomas de Vallın proseslərin bundan sonrakı inkişafı haqda dedikləri də diqqətdən yayınmır. Onun fikrincə, mövcud vəziyyətdə kommunikasiyaların açılması hamının marağındadır: ”Lakin indi vəziyyət 2020-ci ilə nisbətən daha mürəkkəbdir və mən nəticə əldə etmək üçün lazım olan konsensusu görmürəm. Türkiyə Ermənistanla sərhədin açılmasını, Naxçıvana və Azərbaycanın əsas hissəsinə, orada da Xəzər dənizinə dəmir yolu üzərindən çıxış əldə etməyi istəyir. Amma burada əsas məsələ Gümrü və Zəngəzurdan keçən dəmir yolunun təhlükəsizliyini kimin qoruyacağıdır”.

**V.VƏLİYEV**

# "İlham Əliyevdən başqa Azərbaycanı idarə edəcək şəxsiyyət yoxdur"

**Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyası (YAP) İlham Əliyevin prezidentliyə namizədliyini irəli sürüb. SİA bu qərarla bağlı şəhər sakinləri arasında sorğu keçirib.**



**Şəhər sakini Əli Bayramov:** "İlham Əliyev bizim dahimizdir. Öz varlığını Azərbaycan üçün göstərən atanın yetişdirməsidir. Strategiyası ilə azərbaycanlıları qoruyub saxlayandır. Ona görə də, atasının qəbri nurla doludur. Fəxr etmək lazımdır".

**Şəhər sakini Validə Ağayeva:** "Yeni Azərbaycan Partiyasının üzvüyəm. Mən razıyam, növbəti prezident seçkilərində İlham Əliyev seçilsin".

**Şəhər sakini Ayşən Məmmədova:** "Çox gözəl fikirdəyəm. Seçkilər olsun, yenə də prezidentimizi seçək. İlham Əliyevin siyasətini dəstəkləyirəm".

**Şəhər sakini Vidadi Şirinov:** "Biz prezidentimizi sevirik. Allah qoysa, fevralın 7-də ona səs verəcəyik".

**Şəhər sakini Fətəli Qasımov:** "Çox müsbət fikirdəyəm. Allah prezidentimizə cansağlığı versin. Ona böyük hörmətimiz var. Allah ondan razı olsun".

**Şəhər sakini Təhminə Kazımova:** "Allah prezidentimizə cansağlığı versin. İlham Əliyev televizorda çıxış edərkən 4 dildə danışanda mən ağlayıram. Nə yaxşı ki, Allah bizə savadlı, gözəl, yaraşıqlı, hərtərəfli prezident verib. Biz millət olaraq hər şeyə fikir veririk. Ona həm boy, həm savad yaraşır. Bir dəfə canlı yayında zəlzələ oldu, prezident çıxış edirdi. Hamı təşvişə düşdü, bircə o özünü tox tutdu. Allah ona vergi verib. Dəqiq nə dediyi yadımda deyil, amma gülümsədi və sözündən belə anlaşıldı ki, həyatda hər şey olar. Mən həmişə onunla fəxr etmişəm. YAP-ın üzvüyəm, yoldaşım Qarabağ müharibəsi iştirakçısıdır. Bütün ailəmiz ona səs verir".











**Şəhər sakini Nazim Əliyev:** "İlham Əliyev yenə prezident seçiləcək. Hələ ki, başqa namizəd görmürəm. Heç kim yoxdur. Ancaq odur və odur. Ondan başqa Azərbaycanı idarə edəcək şəxsiyyət yoxdur".

**Şəhər sakini Məhəbbət İsmayılov:** "Biz də səsimizi prezidentimiz Cənab İlham Əliyevə veririk. Çünki məcburi köçkün idik, 30 il işğal altında olan torpağımızı 44 gün ərzində erməni tapdağından azad etdi. Onun üçün də yaşasın cənab İlham Əliyev".

**Şəhər sakini ADPU-nun müəllimi, dosent Alı Namazov:** "Biz prezidentimizlə fəxr edirik. Dünyada onun kimi prezident yoxdur. Son zamanlarda da özünü təsdiq elədi. Mən şəxsən Ulu öndər Heydər Əliyevin pərəstişkarıyam. Mənə sual versəydilər ki, Heydər Əliyev Azərbaycana nə verdi? Mən deyərdim ki, nə vermədi? Siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə - hər şeydə, hətta oğlunu da Azərbaycan üçün yetişdirdi. Siyasi xadimlər olub dünyada, onların oğulları yollarını davam etdirə bilmədi. Bu, bir daha təsdiq edir ki, bu gen mükəmməl gendir. Ona görə də İlham Əliyevin prezident seçilməsinə 99%-100% insan səs verəcək".

***Söylü Ağazadə***

# Sahibkarlığın inkişafına dəstək

Ölkəmizdə sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaradıb. Sahibkarlara ayrılan diqqətin nəticəsidir ki, onlara güzəştli kreditlər verilir, fermerlərə subsidiyalar ayrılır ki, bu da ölkədə sahibkarlığın inkişafına münbit şəraitin olduğunu əks etdirən amillərdir. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu. Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" məlum Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli Sənəddir. Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaratmış oldu. Azərbaycanda məhz dövlət səviyyəsində və bütün







ölkəni əhatə edə biləcək şəkildə, geniş formada özünüməşğulluq proqramı icra olunur. Bu sahədə görülən tədbirlər ölkədə ailə biznesinin genişlənməsində, nəticə etibarilə sosial-iqtisadi inkişaf proseslərində vətəndaşların fəal iştirakının təmin olunmasında, kiçik və orta sahibkarlığın inkişafında növbəti irəliləyişlərə əsas yaradır.

Qeyd edək ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması bu sahədə mühüm addımların atılmasında əhəmiyyətli rol oynadı. Sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılması yolu ilə əhalinin məşğulluq səviyyəsinin artırılmasına yönəlib. "ABAD" publik hüquqi şəxsin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verməkdir. Məqsədi ilə sosialyönümlü layihələrin həyata keçirilməsidir. Layihələrə cəlb olunan insanlar müəyyən müddətdən sonra heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq, tərəvəzçilik (istixana), pərakəndə satış kimi istiqamətlər üzrə uğurlu şəkildə özünməşğulluq fəaliyyəti qurublar.

Əhalinin məşğulluq imkanlarının artırılması, bölgələrdə sosial infrastrukturun yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali təbəqələrinə dövlət qayğısının artırılması yönündə həyata keçirilən tədbirlər insanlarda məmnunluq yaradır. Ailə biznesini qurulması və inkişafı da sosialyönümlü layihələr sırasında uğurlu hesab olunur. Təbii ki, bunun böyük nəticələri var."Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının yüksək səviyyədə icrası və özünüməşğulluq fəaliyyətinin təşkili ilə əlaqədar müvafiq normativ-hüquqi bazanın formalaşdırılması istiqamətində ardıcıl işlər görülüb. Bu gün ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi sağlam biznes mühitini yaradıb. Təbii ki, bu da fərdi təsərrüfata sahib olan iştirakçılar onların özünüməşğulluğunun təmin olunması, ailə gəlirlərinin artırılması, ümumən biznes imkanlarına malik olmaları üçün yaradılan şərait onlarda məmnunluq hissini yaradır.

## QADINLAR VƏ GƏNCLƏR ARASINDA İŞSİZLİK MİNİMUM SƏVİYYƏYƏ ENDİRİLƏCƏK

Məlumdur ki, Azərbaycan Respublikasında mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq edilib. Sözügedən Strategiyaya əsasən, iqtisadiyyatda rəsmiiləşəyənlərin qeyri-kənd təsərrüfatı sahəsində ümumi məşğul əhaliyə nisbətini 2030-cu ilədək 80 faizə çatdırmaq nəzərdə tutulub. 2030-cu ilədək işsizliyin səviyyəsinin 4 faizə, o cümlədən qadınlar və gənclər arasında işsizliyi minimum səviyyəyə endirilməsi nəzərdə tutulub. Yüksək əlavə dəyər yaradan və çox əmək sərf olunan sahələrə diqqət yetirməklə, iqtisadi məhsuldarlığın daha yüksək səviyyəyə qalxmasına nail olmaq və 2030-cu ilədək əmək məhsuldarlığını 2 dəfəyə qədər artırmaq nəzərdə tutulub. 2030-cu ilədək əmək bazarında mövcud olan bütün prioritet peşələr üzrə peşə standartlarını hazırlamaq, onların müntəzəm yenilənməsi mexanizmini yaratmağa nail olunacaq.

Məşğulluğun, qeyri-neft ixracının artırılması və digər strateji məsələlərdə özəl sektor həlledici rola malikdir. Azərbaycanda azad rəqabət mühitinin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyalar, real sektora maliyyə dəstəyi və digər tədbirlər həyata keçirilir. Bunun nəticəsi olaraq ötən dövr ərzində ölkədə biznes fəaliyyəti geniş miqyas alıb. Azərbaycanın iş adamları xarici ölkələrdə həyata keçirilən layihələrdə də fəal iştirak edir, müxtəlif sahələrə investisiya yatırır, etibarlı tərəfdaş kimi tanınırlar. Hazırda ölkədə sahibkarlıq fəaliyyəti ilə aktiv məşğul olanların sayı 683 mindən çoxdur. Özəl bölmənin ÜDM-də payı 83,5%, məşğulluqda payı isə 78%-ə yaxındır.

Statistik məlumatlara əsasən, 2003-2022-ci illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin 42.703 investisiya layihəsinin maliyyələşdirilməsinə 2,83 milyard manat güzəştli kredit verilib. Maliyyələşdirilmiş layihələr hesabına 178 mindən çox yeni iş yerinin açılması imkanı yaranıb. Bakı və Abşeron iqtisadi rayonu istisna olmaqla, ayrılmış güzəştli kreditlərin 62,2%-i (1,76 milyard manat) regionların payına düşür. Kreditlərin 50,7%-i kənd təsərrüfatı məhsullarının istehsalına, 49,3%-i isə müxtəlif növ sənaye məhsullarının istehsalı, emalı, o cümlədən aqrar məhsulların emalı və digər sahələrin inkişafına yönləndirilib.

## SAHİBKARLARA HƏCMİ 115 MİLYON MANATDAN ÇOX OLAN VERGİ GÜZƏŞTİ PAKETİ TƏQDİM EDİLİB

Sahibkarlıq subyektlərinin dövlətin güzəştli kreditlərinə əlçatanlığını asanlaşdırmaq üçün tələb olunan sənədlərin sayı minimuma endirilib, sənədlərin notarial təsdiq olunması şərti ləğv edilib və 200 min manatadək kreditlər üzrə biznes plan tələbi aradan qaldırılıb. 2018-ci ildə isə güzəştli kreditlərin illik faiz dərəcəsi 5%-ə endirilib. Onu da vurğulayaq ki, sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması məqsədilə, bir sıra hallar istisna olmaqla, yoxlamalar 2015-ci ildən 1 yanvar 2024-cü il tarixinədək dayandırılıb.

Pandemiya dövründə sahibkarlara göstərilən dəstək dövlətin daim sahibkarların yanında olduğunun göstəricisidir. Bu tədbirlər sahibkarların iqtisadi fəallığının bərpası və artmasına, iqtisadi inkişafın sürətlənməsinə imkan verib. Bu, regionda ÜDM-ə nisbətdə ən böyük dəstək paketi idi. Pandemiya dövründə maliyyə dəstəyi almış sahibkarların sayı 132 mindən çox, ümumi ödənilmiş maliyyə vəsaitinin həcmi isə 364 mln. manata yaxın olub. Sahibkarlara həcmi 115 milyon manatdan çox olan vergi güzəşti paketi təqdim edilib. Bununla yanaşı, pandemiyanın təsirlərindən zərər çəkən sahibkarlar üçün dəyəri 1,5 milyard manat olan kredit-zəmanət və mövcud kredit portfeli üzrə faizlərin subsidiyalaşdırılması mexanizmlərini xüsusilə qeyd etmək lazımdır. Sahibkarların işinin sadələşdirilməsi, onlara dəstək mexanizminin artırılması dövlət əmlakının icarəyə verilməsi sahəsində də həyata keçirilib.

Göründüyü kimi ölkəmizdə son illər aparılan sosial islahatlar, əmək bazarının inkişafı, aktiv məşğulluq proqramlarının genişləndirilməsi üçün atılan addımlar uğurlu nəticə verir. Son 5 ildə məşğulluq orqanları tərəfindən 1 milyondan çox şəxslə müxtəlif istiqamətlər üzrə iş aparılıb, peşə hazırlığı sistemi təkmilləşdirilib.

Görülən tədbirlər deməyə əsas verir ki, Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əsrə bərabər son 20 il - Prezidentin fəaliyyətinin uğur hesabatı...

## İLHAM ƏLİYEV: "Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi"

Dövlət başçısı İlham Əliyev Xankəndi şəhərindən bu mesajı ünvanladı ki, nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar.Bəli, tarix sübut edib ki, hər bir dövlətin qurulması, onun möhkəmləndirilməsi hər şeydən əvvəl bu missiyanı yerinə yetirən liderdən asılıdır. 30 il öncə bu missiyanı Ümummilli Lider Heydər Əliyev öz üzərinə götürdü və onun xilaskarlıq missiyasını hazırda layiqli davamçısı olan Prezident İlham Əliyev həyata keçirir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində Azərbaycan xalqının böyük əksəriyyətinin səsini qazanan İlham Əliyev bu illər ərzində ölkənin siyasi inkişafı, hərbi qüdrətinin artırılması, sosial-iqtisadi rifahı üçün böyük uğurlara nail olub. 30 ilə yaxın müddətdə torpaqlarımızın işğal altında, bir milyondan çox soydaşımızın qaçqın və məburi köçkün vəziyyətində yaşamasına baxmayaraq Azərbaycan xalqı gələcəyə, ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpa olunacağı günə inamını itirmədi. Bu inama əsas verən dövlətimizin qətiyyəti, münaqişənin həlli ilə bağlı prinsipial mövqeyimizin dəyişməməsi, ən yüksək tribunalardan səsləndirilən bəyanatların real həyatda öz əksini tapması idi. 2003-cü ildən Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev bütün çıxışlarında bu əminliyi ifadə edirdi ki, ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, bu ərazilərimizdə yeni həyat başlayacaq.”İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır”. Dövlət başçısı İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Bayrağını ucaltdıqdan sonra çıxışında onu da əlavə etdi ki, bu illər ərzində Azərbaycan gücləndi, dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır: ”Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır”. Və sözsüz ki






### ”DOMOKL QILINCI” KİMİ BAŞIMIZIN ÜSTÜNÜ KƏSDİRƏN QARABAĞ PROBLEMİNİN BİRDƏFƏLİK HƏLLİ, ÖLKƏMİZİN ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİNİN TƏMİN OLUNMASI AZƏRBAYCAN LİDERİNİN 20 İLLİK FƏALİYYƏTİNİN ƏN MÜHÜM NAİLİYYƏTİDİR

Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən son 20 il ərzində həyata keçirilən ”Güclü ordu - güclü dövlət” strategiyasının və ”Dəmir yumruq” əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığının bütün dünyaya nümayişi idi. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ”güclü dövlət” konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Son ötən 20 illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciət edərək bildirmişdir ki, bu gün Silahlı qüvvələrimizlə fəxr edirik: ”Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik”.Ali Baş Komandan İlham Əliyev müraciətində onu da bildirdi ki, bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır: ”Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir.



Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir".Bəli, sözü imzası qədər güclü olan lider, Ali Baş Komandan Prezident İlham Əliyev 44 gün davam edən İkinci Vətən müharibəsində nəyi, nə vaxt edəcəyini bildiyi üçün "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsində bu qələbə qazanıldı. Budur, dünyasəviyyəli, cəsarətli LİDER! Budur, xalqın Prezidenti olmaq! Budur, sözü imzası qədər dəyərli olan Lider. Və Ermənistanın alçaq əməlləri Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!: "Heç kim bizi dayandıra bilməz!. Yüz minlik ordunu kim dayandıra bilər?... Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!". Çünki bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir. Belə olan halda Ermənistan ağıllarını başlarına yığıb bilməlidirlər ki, Azərbaycan indiyə kimi nəyi diktə edibsə, o icra edilib, öhdəliklərdən qaçmaq mümkün deyil.




nəfərdir.Beləliklə, Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunmaq üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu. Qalib Sərkərdə Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi və bu zəfərlə yürütdüyü 20 illik - "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin doğru olduğunu Azərbaycana və beynəlxalq ictimaiyyətə sübut etdi. Və bu uğurların, qazanılan zəfərlərin arxasında xalq-ordu birliyi dayanır. Bəli, bu Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, uğurlu siyasəti haqq işidir!



Bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Ali Baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib, regionun və dünyanın 50 güclü orduları sırasına yüksəlib. Bütün bu islahatlar onu deməyə əsas verir ki, Azərbaycan Silahlı Qüvvələri getdikcə daha da güclənir və dünyanın qüdrətli hərbi güclərindən birinə çevrilir. Əminliklə deyə bilərik ki, həyata keçirilən hərbi islahatlar nəticəsində Azərbaycan Ordusu qüdrətini daha da artıracaq, tam modern hərbi gücə çevriləcək. Və nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz. Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir."Mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!" söyləyən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu çağırışı etdi: "Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın".

***RƏFİQƏ KAMALQIZI***

## PREZİDENT İLHAM ƏLİYEVİN SƏRƏNCAMLARI İLƏ 76 MİN 349 HƏRBİ QULLUQÇU MÜXTƏLİF ORDEN VƏ MEDALLARLA TƏLTİF EDİLİB

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar. Dövlətimizin başçısının imzaladığı sərəncamlarla 11365 nəfər "Füzulinin azad olunmasına görə", 11831 nəfər "Xocavəndin azad olunmasına görə", 3435 nəfər "Zəngilanın azad olunmasına görə", 10211 nəfər "Cəbrayılın azad olunmasına görə", 5867 nəfər "Qubadlının azad olunmasına görə", 5784 nəfər "Şuşanın azad olunmasına görə", 3522 nəfər "Ağdamın azad olunmasına görə", 4225 nəfər "Kəlbəcərin azad olunmasına görə", 2643 nəfər "Laçının azad olunmasına görə", 10647 nəfər "Suqovuşanın azad olunmasına görə", 731 nəfər "Vətən uğrunda", 616 nəfər "İgidliyə görə", 2893 nəfər "Cəsur döyüşçü", 786 nəfər "Döyüşdə fərqlənməyə görə", 1743 isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif ediliblər. Azərbaycan Prezidentin digər Sərəncamı ilə 2 nəfər "Qarabağ", 28 hərbçi "Azərbaycan Bayrağı", 13 nəfər 3-cü dərəcəli "Rəşadət", 7 nəfər isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunublar. Ümumilikdə təltif olunanların sayı 76 min 349



# ”COP29-un Bakıda keçirilməsi ölkəmizin prioritet maraqları ilə üst-üstə düşür”




”2023-cü ilin başa çatmasına həftələr qalmışkən ölkəmiz özünün uğurlar silsiləsinə bir növbətisini daha əlavə etdi: 2024-cü ildə, daha dəqiq desək 11 aydan sonra beynəlxalq əhəmiyyətli COP 29 sammiti Bakıda keçiriləcək. Beynəlxalq tədbirlərin Bakıda keçirilməsi hər nə qədər adi hal səciyyəsi alsa da, COP 29, yəni BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçiriləcək olması təbii ki özünün əhəmiyyəti, mümkün nəticələri, eyni zamanda məsuliyyəti baxımından digər mötəbər tədbirlərdən fərqləndirilməlidir. Təkcə onu demək kifayət edər ki, sessiya müddətində Bakı on minlərlə turist qarşılayacaq və 2024-cü il üçün ölkəmizin turizm potensialı bu kontekstdən zənginləşəcək”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Naqif Həmzəyev deyib. Onun sözlərinə görə, 1995-ci ildən etibarən hər il keçirilən COP sessiyalarının tarixində 2015-ci ildə Parisdə keçirilən 21-ci sessiyanı xüsusilə fərqləndirmək lazımdır: ”Çünki, sessiya çərçivəsində qəbul edilən Paris müqaviləsi ilk beynəlxalq iqlim müqaviləsi olaraq bilinir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası da Paris sazişinə qoşulan dövlətlərdən biridir.



Xüsusi olaraq qeyd etmək istərdim ki, Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi ölkəmizin prioritet maraqları ilə üst-üstə düşür. Çünki, Azərbaycan hər nə qədər karbohidrogen ehtiyatları ilə zəngin dövlət olsa da və bütün dünyada neft-qaz ölkəsi olaraq tanınsa da, xüsusilə də cənab Prezident İlham Əliyevin enerji strategiyasında alternativ mənbələr və yaşıl enerji amili ölkə gündəmimiz üçün daha qabaqcıl əhəmiyyətə malikdir. Azərbaycan Respublikası hazırda yaşıl enerji növlərinin yaradılmasını və dünya bazarlarına nəqlinin həyata keçirilməsini özünün milli enerji strategiyasının gələcək illər üçün prioritetləşməkdə olan parçası olaraq dəyərləndirir. Bunun üçün ölkəmizdə kifayət qədər geniş potensial və həyata keçirmək üçün siyasi iradə var. Cənab Prezident yaşıl enerji amilinə dəfələrlə vurğu edərək, əslində bütün dünyaya bu mesajı da verməyə çalışır ki, Azərbaycan sadəcə neft-qaz yox, yaşıl enerji potensialı ilə də zəngin bir ölkədir və biz bu istiqamət üçün də qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri qurmağa hazırıq”.

Deputat sözlərinə davam edərək bildirib ki, Prezident cənab İlham Əliyevin Dubayda Tərəflər Konfransının 28-ci sessiyasında iştirakı, növbəti il üçün sessiyanın ölkəmizdə keçirilməsinə qərar verilməsi yaşıl enerji sahəsindəki addımlarımızın qlobal səviyyədə müsbət dəyərləndirilməsi mənasına gəlməkdədir: ”Bu artıq illərdir həyata keçirilən uğurlu dövlət siyasətinin nəticəsidir. Nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan yaşıl enerji sahəsində bir çox dövlətlə əməkdaşlıq edir. Məsələn, 2022-ci ilin yanvarın 13-də Səudiyyə Ərəbistanının ”ACWA Power” şirkəti ilə ”Xızı-Abşeron” Külək Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. 2022-ci ilin martın 15-də ”Qaradağ” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti ilə 4 anlaşma memorandumu imzalanıb. 2022-ci ilin dekabr ayında Azərbaycan Gürcüstan, Ruminiya və Macarıstanla yaşıl enerji sahəsində strateji əməkdaşlıq sazişi imzaladı. Azərbaycan işğaldan azad edilmiş ərazilərin də yaşıl enerji zonasına çevrilməsini hədəfləyir. Bununla bağlı müvafiq dövlət proqramı hətta beynəlxalq təcrübədən yararlanılmaqla icra edilməkdədir.

44 günlük müharibənin ardından Ermənistan və havadarları düşünürdülər ki, əsassız ittihamlarla ölkəmizin beynəlxalq nüfuzuna zərər vura biləcəklər. Lakin, COP 29 sessiyasının özü bütövlükdə bütün gözdən salma kompaniyasının süqutu deməkdir. Cənab Prezident İlham Əliyevin rəhbərliyində ölkəmizin beynəlxalq nüfuzu hər keçən il güclənir və həm ev sahibliyi etdiyimiz tədbirlər, həm də fərqli regionlardan dostlarımızın çoxalması uğurlu dövlət siyasətimizin məhsuldarlığını özündə əks etdirir”.

**Ləman Sərraf**

# Uşaqları mediada qorumalı, ya mediadan qorumalı?



Lalə Mehralı

**Uşaq hüquqlarının və təhlükəsizliyinin təminatı, uşaqların mediada qorunması, habelə uşaqların mediadan qorunması anlayışı, əslində, çox geniş mövzudur. Hər dövrün öz uşaqlığı, öz uşaq problemləri və həll yolları olub, media bu istiqamətdə həlledici rol da oynayıb. Əslində, uşaq haqlarının müzakirəsi, mediada qorunması, sadəcə, onların təhlükəsizliyi yox, ümumilikdə dünyanın gələcəyinin təhlükəsizliyi deməkdir.**

Mediada uşaq hüquqlarının müdafiəsi uşaq haqları mövzusu kimi çeşidli və mərhələli prosesdir. Media dünyanı səsli, görüntülü və yazılı tora salmış böyük bir hörümçəkdir. Media anlayışı yekdil fikir ifadə etsə də, dinə, irqə, coğrafiyaya, dilə görə fərqli problemləri ola bilir. İnkişaf etmiş yeni dünya qaydalarına görə ortaq media anlayışı çox məhduddur və qaydalar hər ölkəyə görə dəyişə bilir.

Uşaq haqları və media mövzusunun da, əslində, ucu-bucağı yoxdur. Uşağın mediada necə, nə cür təmsil olunması, müzakirə edilməsi, yer alması uşaq haqları ilə uyğunlaşmalı, biri digərini tapdamamalıdır. Uşaqların ən çox təmasa məruz qaldığı media növü olan televiziyaların üzərinə bu işdə çox böyük məsuliyyət düşür. Günlərinin müəyyən hissəsini televizor qarşısında keçirən uşaqlar efirdə tərbiyələrinə, sağlamlıqlarına, psixoloji inkişaflarına zərər verəcək material görməməlidir. Amma...

Dəfələrlə şahidi olmuşam, sosial proqram adı verilən efir bazarından kadrlar paylaşılır sosial şəbəkələrdə. Azyaşlı uşaqları çıxarırlar efirə, ata-anası qınaq atəşinə tutulur. Guya yardım məqsədi ilə çıxarılıb efirə, amma siz də, mən də bilirik ki, buradakı əsl məqsəd reklamdır, reytinqdir. Uşaqlara yardım etmək istəyən peşəkar jurnalist, aparıcı o yardımı uşaqları efirə çıxarmadan, üzlərini göstərmədən, aləmə car çəkmədən də edə bilər. Amma bu halda reytinq qazana bilmir, reklam edə bilmir deyə azyaşlını efirdə istismar edir, ağlatmağa, göz yaşları üzərindən pul qazanmağa çalışır.

Məşhur bir hüquqşünas qonaqları da olur bu tip proqramların. Hüquqdan zərrə anlamayan hüquqşünas! Hansısa bir kənddə fermada işləyən, orada yaşayan, öz yağı ilə qovrulan ailəyə sanki küçədə zibil eşən siçovula baxar kimi baxan, insanlıqdan zərrə qədər pay almayan insan. Qınağın biri 3 qəpik, təhqir havayı. Bir dəfə bir verilişdə hətta fağır, heç kimlə işi olmayan atanı narkoman, uşaqlarını ağıldankəm, gerizəkalı elan etdilər. Ata ömründə siqaret belə çəkmədiyini deyir, mikrafonu söndürürlər.

Ailəni çoxuşaqlı olduğuna görə az qalırlar edam etsinlər. Axı sizdən kimsə xahiş etməyib bu ailəni efirə çıxarın, yardım toplayın. O ailə heç sizin varlığınızdan belə xəbərdar deyil. Öz şounuza rəng qatmaq, düşmüş reytinqinizi qaldırmaq istəyəndə yada çoxuşaqlı, kasıb ailə düşür. Siz yaxşılıq edirsiniz? Sizin yaxşılığınız başınıza dəysin! Yaxşılığı belə etmirlər.

Bu jurnalistika deyil, bu media deyil. Peşəkarlıq belə olmur. İndi biz necə edək? Peşəkar jurnalist olaraq uşaqları mediada qoruyaq, ya valideyn kimi uşaqlarımızı mediadan qoruyaq? Uşaqları mediadan qorumaq ehtiyacı duymaqdansa, uşaqları etibar edə biləcəyimiz bir media sistemi formalaşdırmaq daha əlverişli olmazdı? Biz övladımız efirdə kimə, nəyə baxır deyə narahat olmamalıyıq, efirdə peşəkarlar var deyə övladımızın izləyəcəyi proqramlardan arxayınlıq hiss etməliyik. Amma çox təəssüf ki, bu gün dünya mediası təcavüzə məruz qalan körpələrin üzünü açıq nümayiş etdirəcək, adını aydın yazacaq vəziyyətə gəlib çıxıb.

Efirlərə nəzarəti də Medianın İnkişafı Agentliyinin ixtiyarına vermək lazımdır. Əminəm, mətbuatda yaratdığı tarazlığı vizual mediada da yaradacaq.

## FELYETON



# Nə yeyirsiniz, ay camaat?..

***Soruşursan ki, ay camaat, nə yeyisiniz? Deyirlər ki, sənə nə var. Heç verilməli sualdır, nə yeyirsiniz? Nə yeyəcəyik ki, dükan-bazar doludur ərzaqla, tərəvəzlə, min bir adda, min bir çeşiddə, həm də bir-birindən gözəl, cəlbedici. Gedib alıb gətiririk, dolduruq soyuducuya, yeyirik. Suala bax, nə yeyirsiniz. Yox bir, gəlin bu işimizə də qarışın.***

Gördüyün kimi, yeyirik ki, ayaq üstündəyik də. Yeməsəydik, çox yəqin ki, o dünyada olardıq. Ta hər işə də qarışmayın ki? Bəsdir də, başımıza ağa kəsiləcəksiniz? Onu etməyin, bunu etməyin, belə olmayın, niyə belə olmalıdır? Bezdirirsiniz ey adamı. İndi də nə yeyirsiniz. Nə yemirik ki, şükür Allaha.

İndi ki, bu qədər maraqlısınız, buyurun, görün nə yeyirik. Necə deyərlər, gir bazara, quş südü tap. Bazarlar doludur ətlə, balıqla, toyuqla, yumurta ilə. Kənd toyuğu ayrı, broyleri ayrı, budu, qanadı, içalatı, yumurtası ayrı. Bazar dolur, boşalır, istehsal var da, həm də sürətli. Yoxsa bu qədər tələbatı çatdırmaq olar? Kartof, soğan, sarımsaq, badımcan, bibər, pomidor, xiyar, göyərti, nə bilim, hər cür tərəvəz var. Bazar- market doludur qışda yayda yetişən, yazda payızda yetişən meyvə-giləmeyvələrlə. İlboyu piştaxtalardan əskik olmayan tərəvəzlərlə. Göz istəyir ki, gözəlliklərinə baxsın. Heç yayda elə tərəvəzlər olmur. Adamın üzünə gülür.

Qış üçün heç turşu tutmağa ehtiyac yoxdur, təzə pomidor, xiyar, rəngbərəng bibərlər, göyərti istənilən qədərdir. Qatıq, süd, pendir, şor, kərə yağı nə qədər istəyirsən. Maşallah, görün nə qədər süd istehsal olunur ki, süd məhsulları ayaq tutub yeriyir.

Marketlər doludur ərzaqla. Nə istəsən ala bilməzsən? Yerlisi də var, xaricdən gələni də. Biz də qədrimizi bilirik, xaricdən gələni alırıq. Niyə? Çünki insanı yaxşı qidalanmaq yaşadır. Niyə də ki, almayaq, bir dəfə gəlirik dünyaya. Nə üçün süfrəmizə istədiyimiz məhsulu qoymayaq? Bunun düyüsü, mərciməyi, noxudu var, kərə, ayçiçək, qarğıdalı yağları var. Hansının rəngi gözəldir, görünüşü böyükdür, xaricdən gəlib, ondan alırıq.

Yağlar da ki, həm təmiz, keyfiyyətli, həm də qiymətləri münasib. Məsələn, kərə yağı var ki, qiyməti 5 manata, ayçiçək, qarğıdalı yağları var 6-8 manata. Belə götürəndə 1 kiloqram kərə, 1 litr ayçiçək, qarğıdalı yağları üçün heç xammalı bu qiymətə almaq olmaz. Çox razıyıq qiymətlərdən də, keyfiyyətdən də. Şükür Allaha, süfrəmiz də ki, doludur.

Hələ marketlərdə endirimli qiymətləri demirik. Hər gün endirim var. Bu, bolluqdan irəli gəlir. Məhsul boldur, market sahibləri də ədalətli, deyirlər qoy satılsın, camaat alıb yesin. Biz də daşıyırıq daşıya bildikcə. Ta nə etməliyik ki...

Cavabımı necə aldımsa, nitqim qurudu. Dedim, düz deyirsiniz, həqiqəti deyirsiniz, haqlısınız. Əlbəttə, insan yeməsə ölər. Ancaq mən nə yeyirsiniz deyəndə GMO-nu soruşmaq istəyirdim. Başladılar gülməyə: yenə başlamayın da, gündə bir hoqqa çıxarırsınız, GMO nədir?

Mən də bayaqdan bəri az qala məni öldürmək istəyənlərə acıqla dedim ki, axşamadək İntagram, Facebook, Tiktok-dan çıxmırsınız. Yazın, görün, nədir də...

**Mətanət Məmmədova**

# “Ermənistan Cənubi Qafqazda revanşizmə ehtiyacı olmadığını başa düşməlidir”

## İqor Korotçenko: Rusiya Ermənistana qarşı "yumşaq" gücdən istifadə etməyə keçib





**Xəbər veridiyimiz kimi, dekabrın 15-də Moskvada ilk ”Rusiya-Ermənistan” ictimai forumu keçirilib. Forumun təşkilatçıları: Rusiya Federasiyasının İctimai Palatası, ”Birlikdə” İctimai Təşkilatı, ”Beynəlxalq Əməkdaşlıq Liderləri”- ANO. Forumda iştirakçılara oxunan müraciətdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov tezisini bəyan edib ki, ”Moskva ilə İrəvan arasında müttəfiqlik əlaqələri Qərbin ölkələrimiz və xalqlarımız arasında münasibətlərə nisbi zərbə vurmaq cəhdləri fonunda möhkəmlik baxımından sınaqdan keçirilir. Birləşdirici gündəliyin axtarışına şərait yaratmaq, həmçinin Rusiya və Ermənistanda ictimai rəyin yeni liderlərinin meydana çıxmasını stimullaşdırmaq məqsədi daşıyan bu təşəbbüs daha qiymətlidir”.**

Həmin gün Rusiya baş nazirinin müavini Aleksey Overçuk Rusiya-Ermənistan hökumətlərarası komissiyasının iclasında iştirak etmək üçün İrəvana səfər edib. Ermənistan paytaxtında Overçuk baş nazir Nikol Paşinyanla görüşüb. Səfəri səmərəli adlandırmaq olar. Tərəflər Ermənistan AES-in enerji blokunun ömrünün yenidən uzadılması üçün tədbirlər kompleksinin həyata keçirilməsi üçün Çərçivə Müqaviləsi imzalayıblar. İrəvanda Rusiya İxrac Mərkəzi açılıb. Hər iki ölkənin mətbuatında bəzən qarşılıqlı sərt tənqidlərin səsləndirilməsi ilə bağlı yaranmış qarşılıqlı narazılıq vəziyyətinin həlli istiqamətində də addımlar atılıb: Rusiya Federasiyasının Rəqəmsal İnkişaf Nazirliyi və Ermənistanın Yüksək Texnologiyalar Sənayesi Nazirliyi arasında saziş, həmçinin ortaya çıxan problemlərin operativ həllini nəzərdə tutan birgə bəyanat imzalanıb.

İki ölkə arasında münasibətlərin böhran yaşadığı bir vaxtda Rusiya-Ermənistan forumunun yaradılmasının və Rusiya Federasiyası baş nazirinin müavininin səfəri çərçivəsində İrəvan razılaşmalarının arxasında nə dayanır - ”Moskva-Bakı” bununla izah olunur. Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko ilə müsahibədə bu mövzulara aydınlıq gətirilir.

***-İqor Yuryeviç, birdən-birə belə bir forumun yaradılması və Rusiya baş nazirinin müavininin İrəvana səfəri heç də təsadüfə oxşamır... Belə platformaya ehtiyac var idimi?***

- Bu ”Rusiya-Ermənistan” forumu siyasət, elm, təhsil, media və mədəni-humanitar əməkdaşlıq sahələrində fəaliyyət göstərən iki ölkənin ictimai rəy liderləri və gəncləri üçün birləşdirici platforma kimi mövqe tutur. Bu forumun diqqət mərkəzində olduğu mövzular Rusiya və Ermənistan arasında ikitərəfli münasibətlərin inkişafında xalq diplomatiyasının rolu və yeri, Rusiya və Ermənistan arasında siyasi qarşılıqlı təsir obrazlarının yaradılmasında medianın tərkib hissəsi kimi, tarixi yaddaşın qorunub saxlanması kimi məsələlər olub. Rusiya ilə Ermənistan arasında uzunmüddətli əməkdaşlığın inkişafı üçün əsasdır.

Niyə belə bir forum keçirildi? Bu onunla izah olunur ki, Rusiya-Ermənistan münasibətlərinin hazırkı vəziyyətini böhran kimi qələmə vermək olar. Bu, İrəvanla Moskvanın, İrəvanla KTMT-nin qarşılıqlı fəaliyyətinə aiddir. Bu forum Paşinyan hakimiyyətinin getdikcə daha çox Qərbə üz tutmasına reaksiyadır. Və təəssüflər olsun ki, Ermənistan cəmiyyətinin mühüm hissəsi siyasi sahədə bu cür dəyişiklikləri dəstəkləyir.

Deyə bilərik ki, Rusiya çoxdan Ermənistanla münasibətlərdə vəziyyətin yaxşılaşmasını gözləyirdi və bunun üçün çox şey etdi, amma sonda indi bu cür ”yumşaq” gücdən istifadə olunur.

Forum əvvəlki təsir alətlərinin, Rusiyanın Ermənistana öz mövqeyini bildirməsinin indiki baş nazirin hakimiyyətə gəlişi ilə özünü səmərəsiz göstərdiyi zaman vəziyyəti dəyişmək cəhdidir. Bundan əlavə, Cənubi Qafqazda yeni reallıq və Qarabağın Azərbaycanın nəzarətinə qaytarılması Ermənistan cəmiyyətinin mühüm hissəsinin Rusiyaya qarşı haqsız və vicdansız ittihamlarına səbəb oldu. Eyni zamanda, amerikalılar (postsovet məkanında ABŞ-ın ən böyük səfirliyi- İrəvandakı) və digər Qərb dövlətləri bu nəticə üçün fəal çalışdılar. Forumdakı çıxışların birində rəqəmlər səsləndirilib- Ermənistanda Qərbdən qidalanan 2500 qeyri-hökumət təşkilatı yerləşir. Bu güclü təsir vasitəsidir. Və Rusiya bunun qarşısını almaq üçün nəsə etməlidir. Ermənistanda Qərbin ictimai rəyə təsirinə müqavimət göstərmək vəzifəsi var. Birləşmiş Ştatlar və Aİ isə digər məsələlərlə yanaşı, informasiya siyasəti vasitəsilə anti-Rusiya əhval-ruhiyyəsini fəal şəkildə gücləndirir.

Eyni zamanda, Ermənistanda birbaşa Paşinyanın komandası ilə işləyən bir qrup politoloq və analitiklə rusiyalı ekspertin qarşılıqlı əlaqəsi vəzifəsi var. Ermənistanın siyasi, hərbi və biznes elitasını öyrənmək, onların daxilində baş verən prosesləri izləmək lazımdır.

Biz erməni cəmiyyəti ilə işləməliyik, öz hərəkətlərimizi, siyasətimizi izah etməliyik. Rusiya Ermənistan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirib, lakin əgər erməni cəmiyyətində kimsə əsassız həddindən artıq gözləntilərə malik olubsa, o zaman bizim əməllərimizi Ermənistan cəmiyyətinə politologiya və siyasi elita vasitəsilə izah etmək lazımdır.

Rusiya Ermənistanla münasibətlərdə vəziyyəti yenidən formatlamağa, ictimai rəy liderləri arasından yeni simalar tapmağa, iki ölkə arasında münasibətlərin möhkəmlənməsinə diqqət çəkən cəmiyyətin təbəqələrinin, politoloqların, ictimai xadimlərin olduğunu nümayiş etdirməyə çalışır. Ancaq hədəflər qoymaq kifayət deyil, onlar da həyata keçirilməlidir. Ermənistanın ictimai-siyasi sahəsində işləmək və təsir etmək. Ancaq aydındır ki, istənilən halda Paşinyan Qərbə bu dönüşünü davam etdirəcək.

***- Bəs Rusiya baş nazirinin müavininin İrəvana səfəri?***

-Hesab edirəm ki, Rusiya hazırda Ermənistanla münasibətlərdəki böhran vəziyyətində əsas təsir alətlərindən birinə (iqtisadi) İrəvanın Qərbə doğru hərəkətini ləngitmək üçün vasitə kimi baxır. Üstəlik, həm müsbət konstruktiv iqtisadi qarşılıqlı fəaliyyət baxımından, həm də onu İrəvana gətirməklə, Rusiya və Aİİ-dən heç bir iqtisadi üstünlük olmadığı halda Ermənistanı təhdid edir. Bildiyiniz kimi, Ermənistan iqtisadiyyatı Rusiya Federasiyasından və Aİİ-dən çox asılıdır. Ona görə də praqmatizm siyasətdən üstün olmalıdır. İqtisadiyyat hər bir dövlətin davamlılığının əsasını təşkil edir. Görünür, Rusiya baş nazirinin müavini Overçukun Moskvada Rusiya-Ermənistan forumunun keçirildiyi gün İrəvana səfəri də məhz bu aspektdə səmərəli olub. Ermənistanla ”soyuq sülh” həmişə siyasi qarşıdurmanın qaynar mərhələsindən yaxşıdır.

Biz Paşinyan əvəzinə Zelenskinin erməni versiyasını görmək istəmirik. Baxmayaraq ki, bu seçimi də istisna etmək olmaz. Qərbin məqsədi isə artıq bəllidir- Ermənistanı Ukraynanın analoqu etmək. Düzünü desək, amerikalılar öz siyasətlərində, xüsusən də postsovet məkanında çox uğurludurlar. Onlar Serj Sarkisyanın dövründə MDB-də və Dövlət Departamentində bununla bağlı ən böyük Amerika səfirliyini açanda belə bir sual verildi ki, niyə? Onlar cavab verdilər: ”Bu, bizim gələcəyə qoyduğumuz strateji sərmayədir”. İndi biz bu investisiyaların nəticələrini görürük.

Necə deyərlər, ”sevgi yoxdursa” ən azı praqmatizm Paşinyan hakimiyyətini Ermənistan iqtisadiyyatına zərbə vura biləcək siyasi və hərbi xarakterli zərərli addımlar atmaqdan saxlamalıdır. İrəvan Ermənistanın Rusiya əleyhinə tramplin olduğu üzə çıxsa, nələri itirə biləcəyini görməlidir. Moldova və Ukraynanın taleyini təkrarlayacaq. Çoxları sual verəcək: niyə biz İrəvanın anti-Rusiya hücumlarına indiyədək təmkinlə yanaşırıq? Çünki Ermənistanda hakimiyyətə gəlmək üçün bizə daha çox anti-Rusiya lideri lazım deyil. Ona görə də səbirlə işləyirik. Biz bunu etməyəcəyik- başqaları bu işi görəcək. Qərbin gözü çoxdan Ermənistandadır.

Rusiya-Ermənistan forum platformasının səmərəliliyinə gəlincə, daha bir son dərəcə vacib və aktual məqam var. Biz Rusiya-Ermənistan münasibətlərində xalq diplomatiyasının müxtəlif formatlarını, özlərini erməni istiqamətinin əsas mütəxəssisi elan edən ayrı-ayrı deputatlar tərəfindən yaradılan müxtəlif növ klubları xatırlayırıq. Amma əslində, sonda tam çöküş yaşadılar.

Əsas odur ki, bu format iki ölkə arasında münasibətlərin konstruktiv və müttəfiq olmasını təmin etməkdə həm Rusiyada, həm də Ermənistanda maraqlı olan əhəmiyyətli təbəqənin olduğunu nümayiş etdirmək məqsədi daşıyır. Digər tərəfdən, başa düşmək lazımdır ki, belə bir format yaradanda ağıllı insanları cəlb etmək lazımdır. Bəli, Rusiya və Ermənistanın bir-birinə ehtiyacı olduğunu başa düşməyə yönələcəklər: Qərb bizi bir-birindən ayırmağa çalışır. Əsasən də, səmimi olanlar və milli maraqların dərk edilməsinə əsaslananlar.

Cənubi Qafqazda hərtərəfli sülh üçün. Qarabağ münaqişəsinin həllindən sonra yaranmış yeni reallıqların dərk edilməsinə, Ermənistanın Cənubi Qafqazda revanşizmə ehtiyacı olmadığını başa düşmək üçün. Sağlam olmayan lobbiçilik problemi var. Ona görə də belə bir Rusiya-Ermənistan formatı işə başlayarsa, bu işə sağlam düşüncəli insanlar cəlb olunmalıdır. Zaqafqaziyada konstruktiv, sağlam, qarşılıqlı faydalı dialoqa diqqət yetirənlər. Əks halda biz lazımi nəticəni əldə edə bilməyəcəyik.

Axı, hazırda regional 3+3 formatının inkişafı üzərində iş gedir. Onun çərçivəsində regionda iqtisadi inkişaf üçün əlverişli şərait yaratmaq mümkündür. Bunun əsasını nəqliyyat kommunikasiyalarının blokdan çıxarması təşkil edir. Bunları erməni tərəfinə izah etmək lazımdır. Hesab edirəm ki, çoxtərəfli ekspert platforması yaratmaq olardı: Rusiya, Ermənistan, Azərbaycan, İran, Türkiyə, Gürcüstan. Müxtəlif çağırışlara birgə cavab vermək və regionda konstruktiv qarşılıqlı fəaliyyətə can atmaq vacibdir.

***Tərcümə - Elçin Bayramlı***



# Qara qızıl insan kapitalına çevrilir

## Prezident İlham Əliyev: "Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcək"



Çağdaş dövrümüzdə qarşıya yeni imkanlar və vəzifələr qoyulub. Azərbaycanın sosial-iqtisadi qüdrətinin artması, təhsil sahəsində davamlı islahatların intensiv xarakter alması, rəqabətli insan kapitalının formalaşması, işğaldan azad edilmiş ərazilərimizdə təhsilin bərpası və inkişafı istiqamətində əhəmiyyətli addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyevin elm və təhsilə göstərdiyi böyük diqqət və qayğı təhsil sektorunun inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri kimi nəzərə alınmasının bariz nümunəsidir. Təhsilin inkişafı sahəsində mühüm addımlar atılıb, bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi və əhatəliliyinin artırılması, səmərəli idarəetmə və maliyyələşmə modellərinin tətbiqi, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, baxımından sistemli tədbirlər həyata keçirilib, Elm və təhsil sahəsində əhəmiyyətli nailiyyətlərin qazanılması, bu sahədə siyasətin vacib göstəriciləri olan əhatəlilik, keyfiyyət, əlçatanlıq, bərabər imkanlar və səmərəlilik sahəsində müsbət dinamika əldə olunub. Belə ki, 2003-cü ilin statistikasına əsasən dövlət büdcəsindən təhsilə ayrılan xərclər təxminən 243 milyon manat təşkil edirdisə, 2023-cü ilin dövlət büdcəsində təhsil xərcləri 4,4 milyard manat olub. Deməli, 20 il ərzində təhsil xərcləri 18 dəfədən çox artıb.



Təhsilin qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində son 20 il ərzində böyük işlər görülüb. 2013-cü il oktyabr ayının 24-də dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq olunması bu sahənin inkişafında yol xəritəsi rolu oynayıb. 2017-ci il 14 aprel tarixində "Məktəbəqədər təhsil haqqında", 2019-cu il 29 mart tarixində "Ümumi təhsil haqqında", 24 aprel 2018-ci il tarixində "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi ilə təhsil islahatlarının daha çevik aparılmasında müstəsna rola malikdir.

### "AZƏRBAYCANDA ELMƏ, TƏHSİLƏ, TEXNOLOJİ İNKİŞAFA ÇOX BÖYÜK ƏHƏMİYYƏT VERİRİK Kİ, GƏNCLƏRİMİZ, CƏMİYYƏTİMİZ BİLİKLİ OLSUN"

Qeyri-neft sektorundan əldə olunan gəlirlər insan kapitalının inkişafına yönəldilməklə Azərbaycanın iqtisadi tərəqqisi və davamlı inkişafına etibarlı zəmin yaradır. Azərbaycanın neft strategiyasının başlıca hədəfləri həmişə ölkənin iqtisadi yüksəlişinə təkan verməkdən və sosial islahatların davamlı olaraq miqyasının genişləndirilməsinə baza yaratmaqdan ibarət olub. Dövlət başçımız praqmatik lider kimi neftdən əldə olunan gəlirlərin, ilk növbədə, ölkədə güclü insan kapitalının formalaşdırılmasına yönəldilməsini vacib olduğunu çıxışlarında dəfələrlə vurğulamışdır. " Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edəcək", - deyən Prezident bildirib ki, biz görürük ki, iqtisadi sahədə, sənaye sahəsində, hərbi sahədə texnologiyalar nə qədər inkişaf edir: "O texnologiyaların sahibləri bu gün dünyada da söz sahibləridir. Biz Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox böyük əhəmiyyət veririk ki, gənclərimiz, cəmiyyətimiz bilikli olsun və Azərbaycan da texnoloji inkişaf baxımından geridə qalmasın. Maddi-texniki baza möhkəmlənir, təhsilin keyfiyyəti yaxşılaşır. Bu sahəyə investisiyalar qoyulur, insan kapitalına investisiyalar qoyulur. "

Müasir dövrdə hər bir xalqın, dövlətin taleyini təkcə onun malik olduğu zəngin təbii sərvətlər deyil, həm də elmi-mədəni və intellektual imkanları və bütün bunların fövqündə dayanan insan kapitalı müəyyənləşdirir. Azərbaycan da öz inkişafını, ancaq təbii sərvətlərin gətirdiyi mənfəətə bağlamır, resurslarını insan faktorunun inkişafına yönəldir. Prezident İlham Əliyevin elm və təhsil sahəsində həyata keçirdiyi davamlı islahatlar da, məhz insan kapitalına əsaslanan informasiyalı cəmiyyətin formalaşmasına zəmin yaratmaq məqsədi daşıyır.

### "AZƏRBAYCANDA QARA QIZILI İNSAN KAPİTALINA ÇEVİRMƏK PRİNSİPİ ƏSASINDA İSLAHATLAR APARILIR"

Müasir dövrümüzdə ölkəmizdə bütün sahələrlə paralel olaraq, təhsil sahəsində köklü islahatlar aparılır, təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri gedir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində son illərdə bu sahədə çox böyük işlərin görülməsini və təhsil sahəsinin daim diqqət mərkəzində olmasını təbii hal olduğunu bildirib: "Çünki hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də böyük dərəcədə şərtləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, görürük ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad, təhsil və elmin inkişafıdır. ... Mənim təşəbbüsümlə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır".

Dövlətimizin başçısının təhsilə qayğısı nəticəsində keyfiyyətli insan kapitalının hazırlanması prosesinin mühüm mərhələsi olan məktəbəqədər təhsildə göstəricilər yüksəlib. Şəhər və kəndlər üzrə məktəbəqədər təhsilin əhatəlilik göstəriciləri əhəmiyyətli dərəcədə artıb, məktəbəqədər təhsil müəssisələrində tərbiyə alan və ümumi təhsil məktəblərində məktəbəhazırlığa cəlb olunmuş 1-5 yaşlı uşaqların ümumi sayı son 5 ildə 16 faiz artıb. Hazırda 1-5 yaşında olan azyaşlıların 32 faizi məktəbəqədər təhsilə cəlb edilib. Növbəti 5 il ərzində bu rəqəmin 50 faizə çatdırılması planlaşdırılır. Bu da o deməkdir ki, 100 min uşağın bu təhsilə cəlbi üçün şərait yaradılacaq.

### 1 MİLYONDAN ÇOX ŞAGİRDİN TƏLİM ŞƏRAİTİ YAXŞILAŞDIRILIB

Bildiyimiz kimi, ümumtəhsil məktəblərinin təmir-tikinti işləri son illərdə davamlı olaraq həyata keçirilir və bu, təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Son illərdə çoxlu sayda yeni məktəb binasının və korpusların inşası, mövcud təhsil müəssisələrinin yüksək səviyyədə yenidən qurulması, onların zəruri tədris avadanlığı ilə təchiz olunması təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən işlərin tərkib hissəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Təhsil sahəsinə göstərilən diqqət, eyni zamanda, infrastrukturun yaranmasında da özünü əks etdirir".

Yeni məktəblərin tikintisi, əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı, infrastrukturunun yeniləşdirilməsi nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılıb.

Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayə deməkdir. Dövlətimiz bu baxımdan, hazırda dünyada lider ölkələrdən biridir. Heç bir ölkədə qısa müddət ərzində bu sayda məktəb tikilməyib və yenidən qurulmayıb. Çox mühüm amillərdən biri də odur ki, yeni yaradılan və əsaslı təmir olunan təhsil müəssisələri ən müasir tədris avadanlığı ilə təchiz edilir. 2003-2023-cü illər ərzində respublika ərazisində 3630 məktəb binası inşa və ya əsaslı təmir edilərək şagirdlərin istifadəsinə verilib. Bu da ölkə məktəblərinin təxminən 80 faizinin təhsil şəraitinin yaxşılaşdırılması deməkdir.



Yeri gəlmişkən, bildirək ki, təkcə 2022-2023-cü tədris ilində 70-ə yaxın məktəb binası tikilərək və ya əsaslı təmir edilərək istifadəyə verilib. Əlbəttə ki, görülən işlər bir daha təsdiqləyir ki, təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər plana uyğun həyata keçirilir. Bütün bunlar, ilk növbədə, şagirdlərin yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır.

Məktəblərin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür. Ümumiyyətlə, istifadəyə verilən müasir standartlara cavab verən təhsil müəssisələrində informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəblərdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil müəssisələrinin həyətində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsili-idarəetmə sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişaf etdirilməsi, müəllimin karyera imkanları, fəaliyyətinin stimullaşdırılması və müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsinin əsas hədəflərindəndir.

Zəngin təbii sərvətləri olan Azərbaycanda, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir.

***Zümrüd BAYRAMOVA***

# “Orta məktəbləri bitirənlərin əksəriyyəti ali təhsil arxasınca qaçır”





## EKSPERT İRAD BİLDİRDİ

“Əmək bazarında peşə sahiblərinə ehtiyac var, amma təəssüflər olsun ki, orta məktəbləri bitirənlərin əksəriyyəti ali təhsil arxasınca qaçır. Peşə təhsili müəssisələrinə marağı artırmaq üçün təkcə təhsilverənlərin deyil, həm də işəgötürənlərin marağını artırmaq lazımdır. Norveçdə dövlət hər hansı bir quruma tender əsasında sifariş verirsə, öz şərtlərində qeyd edir ki, işçilərin 7-15 faizə qədəri yeni peşə təhsilini bitirmiş şəxslərdən ibarət olmalıdır. Bu şərtə əməl etmirsənsə, bu layihədə iştirak edə bilməzsən”. Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.

Onun sözlərinə görə, Cənubi Koreyada isə hər bir fəaliyyətlə məşğul olan müəssisə əldə etdiyi gəlirin çox cüzi bir faizini Peşə Təhsili Fonduna yönəldir: ”Bu kimi stimullaşdırma mexanizmi olandan sonra isə ixtisaslı işçilərə tələbat yaranır, tələbat olandan sonra öz növbəsində bazarın formalaşmasına şərait yaranır və özəl sektor da bu işdə maraqlı olur.

Təəssüflər olsun ki, ali məktəblərə qəbul olmaq bir çoxları üçün həyat yolu, uğurlu gələcəyin açarı hesab olunur. Amma bu heç də belə deyil. Əslində məktəbi yeni bitirmiş gənclər kiçik araşdırma aparsalar görərlər ki, bir çox hallarda 4 illik ali təhsil sadəcə olaraq, vaxt itkisidir. Onlar ali təhsil almışlardan daha uğurlu karyera qura bilərlər. Bunun üçün peşə hazırlığı və peşə təlimi məktəblərinə üz tutsalar, konkret bir peşə ilə məşğul olsalar, daha uğurlu olacaq. Çünki ali təhsil almış şəxslər heç də təhsilini başa vurduqdan sonra işlə təmin olunmurlar. Onların işlə təmin olunması üçün ciddi maneələr, sədlər var. Amma peşə təhsili alanlar hətta təhsil aldıqları dövrdə belə işlə təmin olunurlar. Təəssüflər olsun ki, məktəbi bitirən gənclərə bu düzgün izah olunmur və onlar bunu çox gec başa düşürlər. Hazırda əmək bazarında ali təhsil alan yüzlərlə işçi var. Amma peşə təhsil alanlar qədər çox qazanc əldə edə bilmir, onlar qədər peşəkar səviyyədə deyillər. Hesab edirəm ki, gənclər bundan sonra ali təhsil almağa yox, daha çox peşə təhsilinə meyilli olmalıdırlar. Bu onların uğurlu gələcəyi üçün çox vacibdir.

Bu gün ölkədə fəaliyyət göstərən 100-ə yaxın peşə təhsili müəssisələrində hazırlanan ixtisaslı kadrlar azlıq təşkil edirdi. Əmək bazarında yeni ixtisaslı kadrlara ehtiyac olur. Ona görə də əmək bazarının dəyişən və artan tələbləri nəzərə alınaraq, bu il 33-ü yeni ixtisas olmaqla, ümumilikdə 168 ixtisas üzrə peşə təhsili mərkəzlərinə tələbə qəbulu həyata keçirilir. Bu yeni yaranan ixtisaslara istehsalatda və xidmət sektorunda çox ehtiyac var idi. Hesab edirəm ki, atılan bu addımlar gənclərin peşə təhsilinə marağını artıracaq”.

***Səbinə Hüseynli***

# “Xalq 90-cı illərin əvvəllərindəki hay-küyə aldanan xalq deyil”

## MÜNASİBƏT




**“Özünü siyasi müxalifət adlandıran, ancaq de-fakto xaricdəki anti-Azərbaycan, antitürk qüvvələrin maliyyəsindən yararlanıb ölkədə xaos, qarşıdurma yaratmaq kimi çirkin niyyətə xidmət edən içimizdəki sapı özümüzdən olan (ən azı hüquqi baxımdan-T.N.) baltaların belə üsullara əl atması ilk dəfə deyil”. Bunu SİA-ya açıqlamasında ”Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov deyib.**

Onun sözlərinə görə, bir illik hakimiyyətlərindən ”asta qaçan namərddir” deyib qaçan bu qüvvələr işlədikləri bir ildə ölkəni idarə etməkdən başqa hər şeylə məşğul olub da, ”vəzifə ehtirasları”nı söndürməyə yönələn fəaliyyətlərindən sonra ”bəlkə də qaytardılar” absurd düşüncəsindən xilas ola bilmirlər: ”Bu insanların dövlət idarəçiliyinin fəlsəfəsini belə anlamadıqları müxalifət kimi səsləndirdikləri naşı, savadsız fikirlərindən də aydın görünür. ”Onlar nə istəyirlər” sualına cavab axtarsaq, bir cümlə ilə belə ifadə etmək olar: xaricdəki ağalarının köməyi ilə hakimiyyətə gəlmək və yenə vəzifə, kreslo, hökmranlıq ehtiraslarını doyurmaq! Lakin unudurlar ki, indi xalq 90-cı illərin əvvəllərindəki hay-küyə aldanan xalq deyil. İndi xalq kimin kim olduğunu yaxşı bilir və nə etməli olduğunun da fərqindədir. Azərbaycanın son iyirmi ilinin quruculuq, beynəlxalq imicin artırılması, ildırım sürətli inkişaf və nəhayət ZƏFƏR, QƏLƏB dövrü olduğunu və xalqın bütün hunları ona bəxş edən liderə yenidən etimad göstərəcəyini də yaxşı bilirlər. Belə olduğu halda, ağzı ətə çatmayan pişik kimi, onu ”murdar” adlandırmaqdan başqa yolu yoxdur. Yəni, seçkilərə qoşulub heç bir faiz də səs ala bilməyib yenidən rüsvay olmaqdansa, belə şantaj, böhtan metoduna əl atmaları onlar üçün daha sərfəlidir. Həm daxildəki hələ də aldada bildikləri beş-on sadəlövh insanların, həm də xaricdə onların ciblərini dolduran qüvvələrin qarşısında söz deməyə bundan sonra da bəhanə tapmağın ən asan yolu da budur. Əslində xaricdəkilər də onların bu oyunbazlıqlarını yaxşı bilirlər. Sadəcə, ölkədə ”su bulandırmaq” üçün başqa ləyaqətini, şərəfini itirən adamlar tapa bilmədiklərinə görə, onların ətəklərini əllərindən buraxmaq istəmirlər”.

# “Növbədənkənar prezident seçkiləri yeni bir eranın başlanğıcı olacaq”

“2024-cü ilin fevralın 7-də növbədənkənar prezident seçkiləri keçiriləcək. Artıq bu gün Yeni Azərbaycan Partiyasının İdarə Heyəti dövlət başçısı İlham Əliyevin namizədliyini irəli sürüb. Vəhdət Partiyası da 20 dekabr tarixinə Baş Məclisini təyin edib. Baş Məclisdə Siyasi Şuranın tövsiyəsinə əsasən, İlham Əliyevin dəstəklənməsi barədə qərar verəcəyik”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Tahir Kərimli deyib.

O bildirib ki, bu seçkilər ilk dəfə olaraq Azərbaycanın azad olunmuş ərazilərində keçirilir: ”Bu seçkilərdə həmin ərazilərdən hərbçilər də daxil olmaqla 20 mindən artıq seçici iştirak edəcək. Dövlət suverenliyimiz təmin olunduqdan sonra keçirilən bu seçki böyük əhəmiyyət daşıyır. Hesab edirəm ki, cənab İlham Əliyev qalib gələcək və xalqın etimadını möhkəmləndirərək dövlət quruculuğunda yeni nailiyyətlərə imza atacaq”. ”Şübhəsiz ki, ciddi islahatlar həyata keçiriləcək. Azərbaycan yeni bir etapa daxil olacaq. İşğaldan azad olunmuş ərazilərin bərpası ilə yanaşı, logistika imkanlarımızı möhkəmləndirərək beynəlxalq aləmdə nüfuzumuzu artıracaq və iqtisadiyyatın daha da inkişafına nail olacağıq. İnanıram ki, növbədənkənar prezident seçkiləri yeni bir eranın başlanğıcı olacaq. Bu sahədə hörmətli namizədimiz İlham Əliyevə uğurlar arzulayıram”,- deyə o əlavə edib.



***Ləman Sərraf***



Elçin Bayramlı

# Mediamızın inkişafına dəstək üçün təklif

**Dünən MEDİA-nın jurnalistlər arasında keçirdiyi növbəti müsabiqənin qalibləri açıqlandı. Müsabiqədə müxtəlif nominasiyalar üzrə fərqli sahələrdə yazılar münsiflər tərəfindən seçilərək qalib elan olunub. Ümumilikdə, 13 nominasiya üzrə 50 jurnalist qalib seçilib. Qaliblər Diplom və 700 manat məbləğində pul mükafatı əldə edəcək.**

Bu müsabiqəyə mən də yazı vermişdim, yer tutmasam da, müsabiqənin obyektiv keçirildiyinə şübhəm yoxdur. Bəzi yazılara baxdım, həqiqətən yaxşı yazılara üstünlük verilib. İldən-ilə müsabiqəyə verilən yazılar daha peşəkar və daha güclü olur, rəqabət artır. Bu kimi müsabiqələr jurnalistikanın inkişafı üçün ən stimullaşdırıcı tədbirlərdən biridir. Əvvəllər bu kimi müqabiqələrdə qeyri-obyektivlik açıq-aşkar idi, son illərdə isə köklü dəyişiklik var. Son müsabiqənin də ədalətli və obyektiv keçirilməsi ciddi dəyişikliyin olmasını göstərir. Bu da jurnalistlər arasında və cəmiyyətdə MEDİA-ya inamı artırır.

Ümumiyyətlə, son illərdə Medianın İnkişafı Agentliyi jurnalistlər peşəkarlığının artırılması, media məkanında daha savadlı, daha peşəkar, daha faydalı yazıların çoxalması üçün müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçirir. Jurnalistlərə təlim kursları təşkil olunur, gənc jurnalistlərin media peşəkarları ilə görüşləri təşkil olunur. Qəzet və saytlara verdiyi qrantlar çərçivəsində jurnalistlərin elan olunmuş mövzularda yazılar, materiallar hazırlaması təşviq olunur. Jurnalistlər arasında yazı və süjet müsabiqələrinin keçirilməsi isə bu sahədə bir yarış yaradır. Müsabiqəyə təqdim olunan yazıların qiymətləndirilməsinin obyektiv və ədalətli aparılması bu müsabiqələrə marağı artırır.

Digər tərəfdən, sirr deyil ki, bizdə jurnalistlərin əməkhaqqı yüksək deyil, bir sıra sosial problemləri var. Belə müsabiqələrdə qalib olmaqla onlar bəzi problemlərini həll edə bilirlər. Bu da dolayı yolla MEDİA-nın daha bir məqsədinin reallaşması deməkdir. Çünki agentlik, necə deyərlər, ”1 güllə ilə 2 quş vurur”- həm xalqa, dövlətə faydalı olan materialların mediada daha çox yer almasını stimullaşdırır, həm də jurnalistlərin sosial vəziyyətinin yaxşılaşmasına töhfə verir. Nəticədə həm mediamız sağlamlaşır, keyfiyyətli yazılar çoxalır, həm də jurnalistlər əməkhaqqından əlavə mükafat əldə etmək imkanı qazanırlar.

Belə müsabiqələr ildə 2 dəfə təşkil olunur. Yaxşı olardı ki, il ərzində 4 dəfə keçirilsin. Çünki, ölkəmizdə minlərlə jurnalist var, lakin bir müsabiqədə yalnız 50 nəfərin mükafat alması mümkün olur. Əgər hər rübdə 1 dəfə belə müsabiqələr təşkil olunsa, il ərzində mediada arzuolunan mövzularda minlərlə peşəkar yazılar, süjetlər ortaya çıxar və daha çox jurnalist iştirak edər, qalib olar.

Keçirilən müsabiqələrin son dərəcə vacib və faydalı olmasını qeyd etməklə yanaşı, bir təklifimi də MEDİA rəhbərliyi qarşısında irəli sürmək istəyirəm.

Məlum olduğu kimi, hazırda mediamızda əsasən xəbər janrı ağırlıq təşkil edir, bir az da müsahibə, reportaj, araşdırma və təhlil yazılar olur. Mətbuatda publisistik və ədəbi janrlar itib getməkdədir. Bir çox klassik janrlarda yazılara artıq nadir halda rast gəlirik. Məsələn, felyeton, pamflet, esse, parodiya kimi janrlar itib gedib. Oçerk janrında da yazılar az olurdu, lakin MEDİA müsabiqədə həmin janrda nominasiya qoyandan sonra bu janrda yazılar artıb. Ona görə də, jurnalistikanın ölməkdə olan digər janrlarında da nominasiya olsa daha yaxşı olar. Mətbuatda təkcə məqalənin mətni deyil, materialın vizual effekti də çox vacibdir. Bəzən bir yazıya verilən bir şəkil və ya karikatura yazının özündən daha dəyərli və təsirli olur. Ona görə də, foto və karikatura janrında da nominasiyanın olması unudulmaqda olan bu sahənin dirçəlməsinə səbəb olar.

Ümid edirəm ki, bu təklifimə baxılacaq və ümumi işin xeyrinə lazımi addımlar atılacaq. Əminəm ki, bu addım ənənəvi mətbu və ədəbi janrların dirçəlməsinə, jurnalistlərin peşəkarlaşmasına, cəmiyyətdə klassik mətbuatın nüfuzunun yüksəlməsinə təkan verəcək. Müsabiqə təşkilatçılarına və qaliblərə uğurlar arzu edirəm.

# Boykot siyasi acizliyin və məğlubiyyətin etirafıdır

Müstəqillik əldə etdiyimizdən bəri ilk dəfə olaraq 7 fevral 2024-cü ildə bütün Azərbaycan ərazisində növbədənkənar prezident seçkiləri keçiriləcək. Bu seçkilərə hazırlığın yüksək səviyyədə müxtəlif təşkilatların, qrupların fəallığı ilə aparılması onu deməyə əsas verir ki, xalq seçkilərə xüsusi önəm verir. Həm də o məsələ aydın görünür ki, seçki günü yüksək seçici fəallığı olacaq və bununla da Azərbaycanda növbəti seçki tarixi yazılacaq. Belə bir şəraitdə dağıdıcı müxalifət sağlam rəqabətin əvəzinə təxribatlara üstünlük verir, destruktiv yol tuturlar. Hətta AXCP, Müsavat, Milli Şura kimi dağıdıcı qurumlar və onların liderləri seçkilərin boykot edilməsi barədə xarici qüvvələrin istəklərinə uyğun olaraq qərar qəbul ediblər. Söz yox ki, boykot qərarı siyasi acizliyin və məğlubiyyətin etirafıdır. Sadəcə, bunu boykot qərarı verən AXCP, Müsavat, Milli Şura başbilənləri özlərində cəsarət tapıb dilə gətirmirlər. Məntiq və rasionallıqdan məhrum olmuş, habelə milli maraqlara xidmət etməkdən uzaq olan radikallar anlamalıdırlar ki, boykotun elan olunması həm də onların mənəvi məğlubiyyəti deməkdir. Eyni zamanda, bütün dövrlərdə yalnız manipulyasiya və siyasi alver ilə məşğul olan təxribatçılar seçkilərdə iştirak etməkdən imtina etməklə, hətta az sayda olan öz tərəfdaşlarına belə arxa çevirmiş olurlar. Söz yox ki, sıravi üzvlər hörmətsizliyi heç bir halda həzm etməyəcəklər, istefa verməklə boykot qərarı verən rəhbərliyə öz kəskin etirazlarını nümayiş etdirmiş olacaqlar.



### Dağıdıcı müxalifət öz zəifliyini etiraf etmək əvəzinə növbəti dəfə təxribat və cəmiyyətdə ixtilaf yaratmaq yolunu seçib

Hər bir siyasi partiyanın hansı gücə və elektorata malik olduğu yalnız seçkidən sonra bəlli olur. Seçkilərdə iştirak etməmək isə o anlamı yaradır ki, siyasi partiya aciz durumdadır və sosial bazası mövcud deyil. Onlar yalnız dil qəhrəmanlarından başqa bir şey deyillər. Danışdıqları, yazdıqları, sadəcə, sabun köpüyüdür. Uzun illərdir ki, Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri sosial şəbəkələr vasitəsi ilə pafoslu bəyanatlarla çıxış edir, hədələyici açıqlamalar verirlər. İndi bir daha məlum olur ki, danışdıqları və yazdıqları, sadəcə, sabun köpüyüdür. Əgər özlərinə arxayın olsa idilər, söz yox ki, seçkilərdə iştirak edərdilər. Əmin deyillər və anlayırlar ki, onlar üçün seçki məğlubiyyəti qaçılmazdır. Bu baxımdan, öncədən üzləşəcəkləri real görünən seçki məğlubiyyətindən qaçmaq üçün boykot kimi absurd iddia ilə çıxış edirlər.

Əli Kərimli sosial şəbəkə hesabında yalana, böhtana daha çox yer ayıraraq iddia edir ki, guya seçkilərə qatılmaq üçün demokratik şərait mövcud deyil. Ədalətsiz yanaşmadır və böhtandan başqa bir şey deyil. Çünki qeyri-demokratik mühit olsa idi, Ə.Kərimli və trol dəstəsi cəmiyyəti təhdid edən şantaj və böhtanlarla zəngin olan açıqlamalarla çıxış edə bilməzdi. Digər tərəfdən, məhz növbədənkənar seçkilərin keçirilməsi barədə qərarın verilməsindən sonra dekabrın 16-da AXCP üçün ”qurultay”ının keçirilməsinə icazə verilib və bu məqsədlə Maştağa qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzində şərait yaradılıb. ”Qurultay”ın canlı olaraq sosial şəbəkə üzərindən yayımının təşkil edilməsi iştirakçılar tərəfindən populist fikirlərə geniş yer veriləcəyi əvvəlcədən aydın idi. Elə də oldu. ”Qurultay”da Ə.Kərimli və trol dəstəsi dövlətin əleyhinə hər cür ittihamlar və böhtanlar səsləndirdilər. Hətta elə ağ yalanlar, iftiralar qeyd olundu ki, qurultay iştirakçıları olan bəzi cəbhəçilər belə gülməkdən özlərini saxlaya bilmədilər. Ə.Kərimli çıxışında gah iddia etdi ki, seçkilərin keçirilməsi üçün vaxt azdır, gah da qeyd etdi ki, yaradılan şərait arzuedilən səviyyədə deyil. Bir sözlə, baş trolun dediklərindən belə anlaşılır ki, sanki bunlar xüsusi imtiyaza malik olmalı və əhalinin onlara dəstək göstərilməsi üçün səfərbər edilməlidir. Əvvəla, xalq Ə.Kərimliyə və ətrafında olanlara nifrət edirsə, hansı halda əhalinin onlara imza vermələrinə yardımçı olmaq olar? Nəzərə alınmalıdır ki, AXCP, Müsavat kimi dağıdıcı müxalifət partiyaları ”Siyasi partiyalar haqqında” yeni Qanuna uyğun olaraq cəmi 5 min üzv toplamaqda böyük çətinlik çəkmişdilər.

### Ə.Kərimli, A.Hacılı və C.Həsənli hay-küylərinin qurbanı olacaqlar

AXCP-nin iyulda keçirilən qurultayı da cəbhəçilər tərəfindən narazılıqla qarşılanmışdır. Xüsusilə də, Nurəddin Məmmədlinin növbəti dəfə Ali Məclisin sədri təyin olunması əməlli-başlı qalmaqal yaratmışdır. Hətta bir neçə qurultay nümayəndəsi, o cümlədən partiyanın funksioneri Aydın Əliyev Nurəddin Məmmədlinin təyinatına və qurultayın nəticələrindən narazı qaldığını əsas gətirərək Ədliyyə Nazirliyinə şikayət ünvanlamışdır. Bununla kifayətlənməyən narazı funksioner məhkəməyə müraciət edib. Buna baxmayaq, Ədliyyə Nazirliyi böyük humanistlik və xeyirxahlıq göstərək AXCP-ni təkrar qeydiyyata alıb. Məhz növbədənkənar seçkilərin keçirilməsinə dair qərar ölkədə siyasi partiyaların üzvlərinin reyestrlərinin dövlət qeydiyyatına alınması prosesinin tamamlanmasından sonra qəbul olunub. Bununla da, seçkilərdə iştirak etmək üçün dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara imkan yaradılıb. Heç bir elektoratı olmayan və ötən illər ərzində bütün etibar limitini itirmiş AXCP, Müsavat kimi partiyalar, onların başbilənləri isə öz zəifliliklərini etiraf etmək əvəzinə növbəti dəfə təxribat və cəmiyyətdə ixtilaf yaratmaq yolunu seçiblər. Lakin məsəl var deyərlər, ”sirkə nə qədər tünd olsa, öz qabını çatladar”. Ə.Kərimli, A.Hacılı, C.Həsənli və digərləri mənasız yerə hay-küy qaldırıb, təxribatçı mövqe sərgiləsələr də, nəticədə problemlərlə üzləşən özləri olacaq.

***İ.ƏLİYEV***

# Erməni revanşçıları iş başında

*Voskanyan: "Bizim regionda yaşamaq uğrunda mübarizə gedir"*

**Uğradığı ardıcıl və sarsıdıcı məğlubiyyətlərinə baxmayaraq, Ermənistan cəmiyyətində revanşist ritorika bu gün də davam edir. Maraqlısı isə budur ki, bənzər ritorikalar ictimai-siyasi xadimlər tərəfindən səslənməkdədir. Rüsvayçı məğlubiyyətləri ilə barışmayan qatı erməni millətçiləri Qarabağın itirilməsini həzm edə bilmir və hələ də xalqı mübarizəyə çağırırlar.**



### “Bizi bu reallıqla barışmağa sövq edirlər”

Onlardan biri də daim anti-Azərbaycan və antitürk çıxışları







ilə səs-küy salan iranşünas Vardan Voskanyandır. Belə ki, o vaxtaşırı cəmiyyətə intiqam alacaqları ilə bağlı mesajlar verir və ictimai rəyi çaşdırmağa çalışır.

Çox yəqin ki, Voskanyan Qarabağa qayıtmayacaqlarını çox gözəl anlayır və buna görə də faşistsayağı təbliğatlarını davam etdirir: ”Bütün mümkün və qeyri-mümkün yollarla ictimaiyyəti inandırmağa çalışırlar ki, Qarabağın yenidən ”azad” (dırnaqlar bizimdir-A.T.) edilməsi və ermənilərin ora qayıtması qeyri-mümkündür. Bizi bu reallıqla barışmağa sövq edirlər”.

”Zəiflərə xas olan bu cür qəddar yanaşma məğlub olmuş idmançını xatırladır”, - deyən revanşist ünsür sözlərini belə davam edib: ”Uduzan idmançıya məşq etməyə, revanş döyüşü üçün səy göstərməyə və qələbə sevincindən həzz almağa ehtiyac duyulmadığına inandırmağa çalışmaq həmin idmançını məhv etmək deməkdir”.

### Çox yəqin ki, o, ”zəif xalqlar” amilini ortaya atmaqla, əslində, erməni xalqını nəzərdə tutur

Voskanyan Ermənistanı nəzərdə tutaraq qeyd edib ki, region çalxalanır. ”Bizim region da amansız idman meydanını xatırladır, yaşamaq uğrunda mübarizə gedir”, - deyən iranşünas bildirib ki, zəif xalqlar məhv edilir, onlar tarix səhnəsini tərk etməyə məcbur olurlar. Çox yəqin ki, o, ”zəif xalqlar” amilini ortaya atmaqla, əslində, erməni xalqını nəzərdə tutur və sadəcə, digər xalqları da buna qatmağa çalışmaqla söz oyunu oynayır. Lakin fakt-faktlığında qalır. Ermənistanın revanşçıları artdıqca, bu ölkənin mövcudluğu da artıq böyük sual altında qalır.

***Afət Tahirqızı***

# Uşaqları qorumayan dünya kimə lazımdır?

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*







**Uşaqlar hamımızın həssas nöqtəsi, qırmızı xətti, müqəddəsi, toxunulmazıdır. Bizim kimi mühafizəkar cəmiyyətlərdə ikiqat düşkün olur valideynlər övladına. Hamımızın bir arzusu var, övladımız sülh, dinclik və əmin-amanlıq hökm sürən bir dünyada yaşasın.**



## Bir uşaq, bir göyərçin

Dünyada sülhün iki simvolu var, biri ağ göyərçinlər, digəri gülümsəyən uşaqlar. Hər ikisi saflığın, təmizliyin, dincliyin simvoludur. Dünyada sabitliyi, dincliyi, sülhü ən çox arzulayan da övladı olan insanlardır. Dünyanın yaşanacaq yer olması üçün, uşaqlarımızın sülh içində böyüməsi üçün bu sabitliyi qorumaq məcburiyyətindəyik. Bəşəriyyətin xoşbəxtliyi uşaqların qorunmasından, onların yaxşı tərbiyə olunmasından asılıdır. Axı bu günün uşaqları sabahın böyükləri, dolayısı ilə idarəçisidirlər. Sülhü təmin etmək üçün bütün dünya uşaqları arasında dostluq əlaqələrini qurmaq, bütün xalqlarının vəhdətini yaratmaq, uşaqlara sülhün nə demək olduğunu anlatmaq lazımdır.

Əslində, valideyniksə, bütün söhbətlərin sonu dönüb-dolaşıb uşaqlara gəlir. Ən vacib qərarlarımız onlar haqqındadır, ən ciddi planlarımız uşaqlarımızın barəsindədir, ən böyük arzularımız onların gələcəyi ilə bağlıdır. Əgər valideyniksə bütün həyatımız özümüzdən nələri isə uşaqlarımıza ayırmaqla keçir - diqqətimizi, qayğımızı, sevgimizi, sağlamlığımızı onlara sərf edirik. Hər uşağın böyüyərkən ehtiyacı olan duyğuları ona ötürmədikdə, yalnız fiziki olaraq böyüyən, ruhən həmişə uşaq qalan insanlarla zəngin cəmiyyət formalaşır. Dolayısı ilə bizim ona verə bilmədiyimizi o da öz övladına verə bilməyəcək.

## Qanun da şahdır, uşaq da

"Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa və Ailə Məcəlləsinə əsasən, uşağın hüquq və mənafeləri pozulduqda, o cümlədən valideynlər uşağın təhsili və tərbiyəsi ilə bağlı vəzifələrini yerinə yetirmədikdə, uşağın hüquq-mühafizə orqanlarına müraciət etmək hüququ var. Uşaq pozulmuş hüququndan və onun müvafiq prosessual qaydalarından asılı olaraq fərdi qaydada və ya öz təmsilçisi vasitəsilə müraciət edə bilər.

Azərbaycan hökuməti və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi müvafiq sahədə beynəlxalq qurumlarla əməkdaşlıq edir. Bundan əlavə, Azərbaycan əlil uşaqlar, evsiz uşaqları, uşaqlara qarşı zorakılığın qarşısının alınması, erkən nikahlar, uşaq ölümləri, məktəbəqədər təhsil kimi təhsil, səhiyyə və digər sosial məsələlərdə UNICEF ilə sıx əməkdaşlıq edir.

1992-ci ildə Azərbaycanda BMT-nin " Uşaq hüquqları haqqında" Konvensiyası və səkkiz il sonra onun "Uşaqların silahlı münaqişələrə cəlb edilməsi" və "Uşaqların satışı, uşaq fahişəliyi və uşaq pornoqrafiyası" daxil olmaqla iki Fakültativ Protokolu ratifikasiya edilib.

Azərbaycan 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Yetkinlik yaşına çatmayanlara dair ədalət mühakiməsinin həyata keçirilməsinə dair Standart Minimum Qaydalarını, 1996-cı ildə Nikahın bağlanmasına razılıq, nikah üçün minimum yaş və nikahların qeydiyyatı haqqında Konvensiyanı, 2004-cü ildə Avropa Sosial Xartiyasını və Ayrı-seçkiliyin aradan qaldırılması haqqında Konvensiyanı və 2006-cı ildə Təhsil Sahəsi üzrə hüquqi sənədləri qəbul edib.

Hökumətimiz, BMT-nin Uşaq Hüquqları Komitəsinə (UNHCR) Konvensiyanın və onun iki Fakültativ Protokolunun həyata keçirilməsi üçün dövri hesabatlar təqdim edir. Bundan əlavə, Azərbaycan "Uşaqların yaşaması, qorunması və inkişafı haqqında" Ümumdünya Bəyannaməsinin tərəflərindən biridir. "Uşaq hüquqlarının müdafiəsi haqqında" da bir sıra milli qanunvericilik aktları təsdiq edilib. Azərbaycan, 1998-ci ildə qanunvericiliyini Uşaq Hüquqları Konvensiyasında (UHK) qeyd olunan prinsiplərə uyğunlaşdıran "Uşaq hüquqları haqqında" qanunu qəbul edib.

## Heydər Əliyev Fondunun uşaqlara diqqəti

2004-cü ilin mayında əsası qoyulmuş Heydər Əliyev Fondu uşaq müəssisələrinin infrastrukturunun inkişafı, uşaq evlərinin və internat məktəblərinin təmiri, körpələr evi və uşaq bağçalarının tikintisi üçün maliyyə vəsaiti ayırmaqla bağlı bir sıra layihələr həyata keçirir. Bundan əlavə, fond valideynlərini itirmiş və uşaq evlərində tərbiyə alan uşaqların, habelə sağlamlıq imkanları məhdud şəxslərin sosial inteqrasiyasına yönəlmiş layihələrin həyata keçirilməsi ilə məşğul olur. "Uşaq evlərinin və uşaq evlərinin inkişafı" proqramı çərçivəsində Fond tərəfindən 34 uşaq müəssisəsi bərpa və avadanlıqla təchiz edilib.

Fond uşaqların dünyagörüşünün genişləndirilməsi məqsədi ilə xarici ölkələrdə keçirilən beynəlxalq müsabiqələrdə onların iştirakını təmin edir, həmçinin digər ölkələrin analoji müəssisələrində tərbiyə alan uşaqların Azərbaycana gəlməsi və ölkəmizlə tanış olması üçün şərait yaradır. Eyni zamanda, Heydər Əliyev Fondu sağlamlıq problemləri olan uşaqların ölkədə və xaricdə sağlamlığına qovuşması üçün zəruri bütün dəstəyi göstərir. Azərbaycanda müalicəsi olmayan körpələrin xaricə göndərilməsi, əməliyyat və müalicə xərclərini də Fond ödəyir.

## Sosial müdafiədə uşaq izi

Azərbaycanda uşaqların müdafiəsi aparılan sosial siyasətin mühüm tərkib hissəsidir və hazırda qanunvericilikdə nəzərdə tutulan kateqoriyalara aid olan uşaqlar sosial təminat sistemi ilə əhatə olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 18 yaşadək əlilliyi olan şəxslər, ailə başçısını itirən, aztəminatlı, ünvanlı sosial yardım alan ailələrdəki uşaqlar, şəhid ailələrinin, müharibə ilə əlaqədar əlilliyi olanların, beşdən çox uşağı olan qadınların, müddətli hərbi xidmət qulluqçularının uşaqları və s. kateqoriyadan olan uşaqlar, habelə 18 yaşadək əlilliyi olan şəxslərə qulluq edənlər, işləyən valideynlərdən üç yaşadək uşaqlara qulluq edənlər, valideyn himayəsindən məhrum uşaqların qəyyumları aylıq sosial ödənişlə təmin edilir. Uşağın anadan olmasına görə isə birdəfəlik müavinət ödənilir.

Nazirliyin 3 ayrı uşaq reabilitasiya müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə uşaqların tibbi, psixoloji, tədris-peşə diaqnostikası təyin edilərək, fərdi reabilitasiya planları əsasında onların tibbi, sosial, tədris-peşə reabilitasiyası işləri aparılır. Şəmkir, Ağcabədi və Quba rayonlarında da Uşaq Reabilitasiya Mərkəzlərinin istifadəyə verilməsi planlaşdırılır.

Təmənnamız, eyni zamanda, uşaqlara uşaqpulu ödənilməsi istiqamətindədir. Bu istiqamətə uzun müddətdir müzakirələr aparılır, sosial yardım kimi təyinatlı müavinət modeli uşaqpulu təyinatında da əlverişli ola bilər. Aztəminatlı ailələrin övladına dövlət öz dəstəyini bu yolla hiss etdirə bilər.

***Lalə Mehralı***

SƏS
20 dekabr
2023-cü il

# “Qayınana ilə münasibət qızların ailə tərbiyəsindən asılıdır”

MÜNASİBƏT

**“Qayınana ilə münasibət, əsasən, qızların ailə tərbiyəsindən, hansı ailədən çıxmasından asılıdır. Həmçinin, insanın xarakteri, həyata baxışı da rol oynayır”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülər Məmmədova deyib.**

Onun sözlərinə görə, bu məsələdə həm də yaş faktoru da öz işini görür: ”Qız uşaqlarının əsas tərbiyəsiçisi anasıdır. O qız övladı ki, evdə nənə-baba tərbiyəsi görür, mehriban münasibətlər yaşayırsa, orada sadiqlik, nəvazişin şahidi olur. Ona görə uşaqlıqdan gələcək qayınana-qayınataya qarşı müsbət fikirlər formalaşır. Əgər ailədə anası və nənəsi arasında konflikt yaşanırsa, qız uşağı travma alır və düşünür ki, anam kimi mən də qayınana ilə yaşasam bu cür mübahisələrlə üzləşə bilərəm. Elə bu səbəbdən də həmin qız hər zaman ayrı, hüzur içində yaşamaq istəyir. Başqa bir səbəb kimi həmin qızların evdarlıqlarının az olmasını və ailəyə tam bağlı olmamaqlarını da misal gətirə bilərik. O qisim qızlar həyatlarında hansısa qadağaları sevmirlər. Onlar daima həyat yoldaşları üçün diqqət mərkəzində olmaq, eyni zamanda, kişinin anasına deyil, ona bağlı olmağına üstünlük verirlər. Bu qızlar böyüklər tərəfindən heç bir məsləhət almaq istəmirlər. Onlar hətta həyat yoldaşları tərəfindən belə hansısa qadağalara dözə bilmirlər”.



O vurğulayıb ki, bir qisim qızlar isə, natamam ailədə böyüdüyü üçün onlar hər zaman böyük ailə arzusunda olur: ”Məsələn, ya ana, ya ata nəvazişindən məhrum olan qızlar hər zaman geniş ailədə yaşamaq istəyirlər. Digərləri isə öz peşə fəaliyyətini davam etdirmək üçün qaynanası ilə bir yerdə yaşamağa üstünlük verir. Bu zaman o, ailə məsuliyyətini bir qismini qaynanası ilə paylaşmaq istəyir. Hətta olur ki, qızlar birlikdə yaşamaq istəyirlər, əksinə, oğlan valideynləri ilə qalmaq istəmir. Yəni, belə situasiyalar da var”.

***Ləman Sərraf***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Əjdaha ili nə vəd edir?

ASTROLOQ AÇIQLADI

**“2024-cü il Əjdaha ilində doğulanlar üçün enerjilərinin yüksək olduğu bir dövr olacaq. Fevralın 10-dan etibarən yaşıl əjdaha ili başlayır. Bu da o deməkdir ki, əjdaha ilində doğulanlar digərlərinə nisbətən il ərzində daha enerjili, şanslı və güclü olacaqlar”. Bu sözləri SİA-ya açıqlamasında astroloq Səbuhi Rəhimli deyib.**



Onun sözlərinə görə, nücum elmi yarandığı dövrdən müasir zəmanəyə qədər bütün mənbələrdə ilin hakimi olan heyvanın həmin ildə doğulanlara daha düşərli olacağı vurğulanır: ”Bu amili nəzərə alsaq, deməli 2024-cü ildə əjdahaların bəxti hamıdan çox gətirəcək. Lakin mənalı yaşayış üçün bəxt heç də həmişə əsas rol oynamır. Ağıl, uzaqgörənlik, əzmkarlıq, davranış və münasibətlər də kompleks təşkil etməlidir”.

”Əjdaha ili bu ildə doğulanların şəxsi taleyində dönüş olacaq. Yaradıcılıq potensialının genişlənməsi, yeni və səmərəli planların həyata keçməsi onların fəaliyyətinə müsbət çalarlar gətirəcək. Əjdaha 2024-cü ildə başa düşəcək ki, maraqlı həyat təkcə biznes uğurlarından deyil, həm də sevgi münasibətlərindən ibarətdir. İlin son 3 ayı istisna olmaqla onlar üçün bu il ailə qurmaq düşərli olacaq. Əjdaha ilində doğulanlar 2024-cü ildə heç nədən korluq çəkməyəcəklər”,- deyə o əlavə edib.

***Ləman Sərraf***

# Azərbaycana saxta dollar gətirən dəstə tutuldu



Polis əməkdaşları ölkənin maliyyə sisteminə ciddi təhlükə yaradan saxta pulların hazırlanması və dövriyyəyə buraxılmasının qarşısının alınması istiqamətində əməliyyat tədbiri həyata keçirib. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinən SİA-ya verilən məlumata görə, keçirilmiş kompleks əməliyyat tədbirləri nəticəsində ölkə ərazisinə saxta dollar əskinaslarını gizli yollarla gətirən dəstə müəyyən olunaraq saxlanılıb. Həmin şəxslər saxlanılan zaman onların üzərindən 10000 (on min) saxta ABŞ dolları götürülərək istintaqa təqdim edilib. Dəstənin digər üzvlərinin və əlavə cinayət əməllərinin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilir.

# İsveçlilər tənhalıqdan əziyyət çəkir...



İsveçin İctimai Səhiyyə İdarəsinin statistikası göstərir ki, ölkədə gənc insanlar tənhalıqdan əziyyət çəkirlər, xüsusən də kişilər bu hissi qadınlara nisbətən daha çox keçirirlər. Ölkənin İctimai Səhiyyə İdarəsi tərəfindən 2022-ci il üçün aparılan sorğunun nəticələri bunu sübut edir. Qurum bu cür sorğuları iki ildən bir keçirir.

”Oğlanların və kişilərin necə olmaları ilə bağlı kifayət qədər ciddi standartlar mövcuddur. Bu standartların bir hissəsi ondan ibarətdir ki, onlar öz hissləri barədə danışmamalıdır. Statistikaya görə, qadınlar psixi xəstəliklərlə bağlı kömək üçün daha çox müraciət edirlər”, - deyə İctimai Səhiyyə İdarəsinin tədqiqatçısı Hillevi Buş qeyd edir. Onun sözlərinə görə, yaşı 16-dan 29-dək olan respondentlərin 27 faizi təsdiqləyirlər ki, onların öz fikirlərini bölüşəcəyi və ya etibar edəcəyi insan yoxdur.

## ELAN

Yeni Azərbaycan Partiyası tərəfindən Məmmədov Rüfət Surxay oğluna verilmiş 694602 saylı üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**